

Milli azadlıqdan şirin nemət yoxdur!




YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
27 fevral 2025-ci il, cümə axşamı
№ 036 (6864)
Qiyməti 60 qəpik

# Faciə qurbanlarının xatirəsini ehtiramla yad edirik






## Ankaraya zəng...

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 26-da Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğana zəng edib.

Prezidentin Mətbuat Xidmətinin məlumatına görə, dövlətimizin başçısı Rəcəb Tayyib Ərdoğana ad günü münasibətilə təbriklərini çatdırıb, qardaş Türkiyənin inkişafı naminə prezidentlik fəaliyyətində yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.

Rəcəb Tayyib Ərdoğan göstərilən diqqətə və təbrikə görə təşəkkürünü bildirib.

Dövlət başçıları ölkələrimiz arasında "Bir millət, iki dövlət" prinsipinə əsaslanan dostluq, qardaşlıq və müttəfiqlik münasibətlərinin bundan sonra da uğurla inkişaf edəcəyinə əminliklərini bildirərək, əlaqələrimizin perspektivləri, gələcək təmaslar və qarşılıqlı maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı soyqırımı abidəsini ziyarət ediblər




Bax səh. 2

## Siyasi dialoq: Ümummilli məsələlərdə həmrəylik mühiti...

Bax səh. 4








Bax səh. 2

## Yeni Azərbaycan Partiyasının nümayəndələri Xocalı soyqırımı abidəsini ziyarət ediblər

## Bakıdan verilən mesajlar...

Fevralın 24-də Bakıda keçirilən Azərbaycan-Pakistan biznes forumunda iki ölkə arasında iqtisadi əməkdaşlığın yeni gündəliyi və iqtisadi prioritetlər üzrə strateji kurs müəyyənləşdi. Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərifin biznes-forumda iştirakı və çıxışı zamanı bəyan olunan fikirlər isə strateji yol xəritəsi olmaqla, iqtisadi müttəfiqliyin möhkəm təməllərinin qoyulması baxımından mühüm əhəmiyyət kəsb etdi. Liderlərin biznes icmasına ən ali səviyyədə dəstək veriləcəyinə dair mesajları isə qarşılıqlı iqtisadi-ticari təmaslarda yeni dövrün başlanğıcı hesab oluna bilər. Azərbaycanın dövlət başçısının vurğuladığı kimi, forum ikitərəfli gündəliyimizi əks etdirir və bu sahədə daha geniş çərçivə yaradacaq.

Azərbaycan və Pakistan arasında ticarət dövriyyəsinin dinamikası son illərdə yüksəlsə də, mövcud potensiallardan xeyli aşağıdır. 2024-cü ildə mal mübadiləsinin dövriyyəsi əvvəlki illərə nisbətən əhəmiyyətli dərəcədə artsa da, bu rəqəm qaneedici sayılmır və hər iki ölkənin potensial bazası bundan qat-qat çoxdur. Aparılan qiymətləndirmələrə görə, mövcud ticarət balansını ən azı 5-10 dəfə artırmaq mümkündür. Bu məsələ biznes-forumda da diqqətə çatdırıldı, ticari təmasları artırmaq üçün preferensiar (qarşılıqlı ticarət güzəştləri) alətlətlərdən istifadənin zəruriliyi xatırlandı. Bu məqsədlə tərəflər azad gömrük rejiminin yaradılması, idxal və ixracda qarşılıqlı güzəşt tariflərinin tətbiqi, ticarət axınlarının asanlaşdırılması, elektron mübadilə resurslarından faydalanmaq və digər addımları...

Bax səh. 3

## Real hədəf!

Tarix xalqların yaddaşıdır və bu yaddaşın silinməsinə yönələn cəhdlər heç vaxt uğur qazanmır. Bu gün biz Qərbi Azərbaycana qayıdışın təkcə bir ideya deyil, real bir hədəf olduğunu dərk edirik. İllər öncə zorla öz yurdlarından qovulan azərbaycanlıların yeni nəsli həmin torpaqların tarixi gerçəkliyini yaşatmaq və gələcəkdə oraya qayıtmaq əzmi ilə yetişir. Bu isə yalnız istək və duyğularla deyil, bilik, elm və strategiya ilə həyata keçiriləbiləcək bir prosesdir.

Qərbi Azərbaycan yalnız xəritələrdə deyil, xalqımızın qəlbində mövcuddur. O torpaqlar bizim dədə-baba yurdlarımızdır...

Bax səh. 5

## Ballıcaya 5-ci köç!

Azad edilmiş torpaqlarımıza qayıdış Azərbaycan Ordusunun möhtəşəm qələbəsi və dövlətimizin yürütdüyü məqsədyönlü siyasət ilə reallaşır. Keçmiş məcburi köçkünlər doğma torpaqlarında bu qələbəni qürur hissi ilə qeyd edirlər. "Böyük Qayıdış" xalqın öz doğma torpaqlarında əmin-amanlıq və rifah içində yaşaması üçün mühüm bir addım, həm də Azərbaycanın tarixi qələbəsinin, ərazi bütövlüyünün bir daha təsdiqidir.

Bu gün Qarabağın azad olunması ilə Ballıca kəndinə də yeni həyat gəlib. Burada artıq keçmişin izlərini bərpa etmək, təbiətin və mədəniyyətin harmoniyasını yenidən qurmaq mümkündür...

Bax səh. 6



## ABŞ Avropadan "əlini" çəkərsə...

Bax səh. 7

## Qlobal əhəmiyyət daşıyan humanitar diplomatiya

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə reallaşdırdığı çoxsaylı layihələrlə dövlət siyasətinə güclü dəstək verir. Eyni zamanda, Fondun ölkə hüdudlarından kənarda həyata keçirdiyi humanitar məzmunlu geniş fəaliyyət də təqdirlə qarşılanır. Deyə bilərik ki, Fond dünyada Azərbaycanın xoşməramlı rəmzinə çevrilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu günlərdə Ər-Riyad Beynəlxalq Humanitar Forumunda iştirakı quruma və bütövlükdə ölkəmizə beynəlxalq səviyyədə marağın artdığını əyani şəkildə təsdiqləyir.

Dünyanın indiki reallıqları humanitar nöqteyi-nəzərdən olduqca kədərlidir. Yeni növ koronavirus pandemiyasının, ayrı-ayrı regionlarda səngiməyən müharibələrin, iqlim dəyişmələrinin fəsadları çox ağırdır. Belə reallıq fonunda humanitar diplomatiyanın qlobal əhəmiyyət daşıdığı aydın şəkildə dərk olunur. Forumda təmsil olunan Leyla Əliyeva "Qlobal humanitar könüllülük: perspektivlər və hədəflər" adlı paneldə çıxış edərək Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda və digər ölkələrdə həyata keçirilən humanitar layihələr barədə məlumat verib.

Azərbaycan da müstəqilliyinin ilk vaxtlarından humanitar böhranla üzləşən ölkədir. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistanın işğalına məruz qalan ərazilərimizdə təxminən bir milyon insan ev-eşiyini tərk etmək məcburiyyətində qaldı. Onlar uzun illər boyunca çadırlarda, vaqonlarda, yararsız binalarda...

Bax səh. 5

# Faciə qurbanlarının xatirəsini ehtiramla yad edirik

## Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xocalı soyqırımı abidəsini ziyarət ediblər








XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 33-cü ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva soyqırımı qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoyub, soyqırımı qurbanlarının xatirəsinə ehtiramını bildirib.

***

Xocalı soyqırımından 33 il ötür. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələri keçmiş sovet ordusunun Xankəndi şəhərində yerləşən 366-cı alayının iştirakı ilə Xocalı şəhərini yerlə-yeksan etdi. Erməni təcavüzkarların Azərbaycan xalqına qarşı törətdiyi növbəti kütləvi qırğın nəticəsində 613 nəfər, o cümlədən 106 qadın, 63 uşaq, 70 qoca xüsusi amansızlıqla qətlə yetirildi, 1275 dinc sakin əsir götürüldü, 150 nəfərin taleyi isə hələ də məlum deyil. Bu soyqırımı aktı nəticəsində 8 ailə tamamilə məhv edildi, 25 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirdi.

Uzun illərdir ki, Azərbaycan dövləti Xocalı faciəsi ilə bağlı həqiqətlərin beynəlxalq ictimaiyyətin diqqətinə çatdırılması, onun soyqırımı kimi tanıdılması istiqamətində sistemli iş aparır. Bütün dünyanın gözü qarşısında baş verən bu dəhşətli soyqırımının əsl mahiyyəti yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə siyasi hakimiyyətə qayıtdıqdan sonra açıqlanıb, 1994-cü ilin fevralında Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət verib.




Prezident İlham Əliyev Xocalı soyqırımını törədənlərin ifşa olunmasını və beynəlxalq ictimaiyyətin geniş məlumatlandırılmasını Azərbaycanın xarici siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyənləşdirib və bu istiqamətdə ardıcıl addımlar atılır.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu bəşəriyyətin ən böyük faciələrindən olan Xocalı soyqırımı haqqında faktların dünyaya çatdırılması istiqamətində sistemli və ardıcıl fəaliyyət göstərir. 2008-ci ildə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə başlanmış "Xocalıya ədalət!" beynəlxalq kampaniyası bu istiqamətdə təbliğat işini daha da fəallaşdırıb. Faciə ilə əlaqədar dəhşətli faktlar bu kampaniya çərçivəsində geniş beynəlxalq ictimaiyyətə çatdırılıb, planetin bütün guşələrində milyonlarla insan erməni millətçilərinin əsl simasına bələd olub.

Bu gün Xocalı şəhidlərinin ruhları şaddır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə çoxəsrlik tariximizdə bənzəri olmayan Vətən müharibəsi, eləcə də uğurlu antiterror tədbirləri nəticəsində respublikamızın ərazi bütövlüyü və suverenliyi tam təmin olunub, Xocalı şəhəri separatçılardan təmizlənib. 2023-cü il oktyabrın 15-də Prezident İlham Əliyev Xocalı şəhərində Azərbaycan Respublikasının Dövlət Bayrağını ucaldıb.

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdış çərçivəsində 2024-cü ilin mayında Xocalıya ilk köç baş tutub.

Qeyd edək ki, Prezident İlham Əliyev Azərbaycan xalqına qarşı törədilmiş soyqırımının beynəlxalq səviyyədə tanıdılması və Xocalı faciəsi qurbanlarının əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə "Xocalı şəhərində Xocalı Soyqırımı Memorial Kompleksinin yaradılması haqqında" 2025-ci il fevralın 25-də Sərəncam imzalayıb.

# Yeni Azərbaycan Partiyasının nümayəndələri Xocalı soyqırımı abidəsini ziyarət ediblər




Fevralın 26-da Xocalı soyqırımının 33-cü ildönümü ilə əlaqədar Yeni Azərbaycan Partiyasının nümayəndələri faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.

Abidənin önünə əklil və gül dəstələri qoyulub, soyqırımı qurbanlarının əziz xatirəsi ehtiramla yad olunub.







# Bakıdan verilən mesajlar...

## Azərbaycan-Pakistan biznes-forumunda elan edilən prioritetlər iqtisadi əlaqələrin yeni mərhələyə çatmasında mühüm rol oynayacaq

Fevralın 24-də Bakıda keçirilən Azərbaycan-Pakistan biznes forumunda iki ölkə arasında iqtisadi əməkdaşlığın yeni gündəliyi və iqtisadi prioritetlər üzrə strateji kurs müəyyənləşdi. Prezident İlham Əliyev və Baş nazir Məhəmməd Şahbaz Şərifin biznes-forumda iştirakı və çıxışı zamanı bəyan olunan fikirlər isə strateji yol xəritəsi olmaqla, iqtisadi müttəfiqliyin möhkəm təməllərinin qoyulması baxımından mühüm əhəmiyyət kəsb etdi. Liderlərin biznes icmasına ən ali səviyyədə dəstək veriləcəyinə dair mesajları isə qarşılıqlı iqtisadi-ticari təmaslarda yeni dövrün başlanğıcı hesab oluna bilər. Azərbaycanın dövlət başçısının vurğuladığı kimi, forum ikitərəfli gündəliyimizi əks etdirir və bu sahədə daha geniş çərçivə yaradacaq.








### Ticarətin həcmini artırmaq üçün gömrük güzəştləri

Azərbaycan və Pakistan arasında ticarət dövriyyəsinin dinamikası son illərdə yüksəlsə də, mövcud potensiallardan xeyli aşağıdır. 2024-cü ildə mal mübadiləsinin dövriyyəsi əvvəlki illərə nisbətən əhəmiyyətli dərəcədə artsa da, bu rəqəm qaneedici sayılmır və hər iki ölkənin potensial bazası bundan qat-qat çoxdur. Aparılan qiymətləndirmələrə görə, mövcud ticarət balansını ən azı 5-10 dəfə artırmaq mümkündür. Bu məsələ biznes-forumda da diqqətə çatdırıldı, ticari təmasları artırmaq üçün preferensial (qarşılıqlı ticarət güzəştləri) alətlərdən istifadənin zəruriliyi xatırlandı. Bu məqsədlə tərəflər azad gömrük rejiminin yaradılması, idxal və ixracda qarşılıqlı güzəşt tariflərinin tətbiqi, ticarət axınlarının asanlaşdırılması, elektron mübadilə resurslarından faydalanmaq və digər addımları atacaq.

Qeyd edək ki, ötən ilin iyul ayında "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında tranzit ticarət haqqında Saziş" imzalanıb və məqsəd ticari dinamikanı yeni mərhələyə daşımaq, bunun üçün qarşılıqlı güzəşt bloklarının təmin edilməsidir. Azərbaycan bu istiqamətdə ilk güzəşt stimullarına qərar verib, ötən ilin ortalarında Pakistandan ixrac olunan düyü məhsuluna görə, gömrük rüsumunu aradan götürüb. Qeyd edək ki, Azərbaycan 25 ölkədən düyü idxal edir ki, bunun təxminən 5-7 faizi Pakistanın payına düşür, hədəf həmin malın idxalını dəfələrlə artırmaqdır. Gömrük güzəştindən sonra 2024-cü ildə Pakistandan düyü idxalı 3 dəfədən çox artıb və bu dinamikanın daha da böyüyəcəyi istisna deyil.

### Ticarət palataları ikitərəfli ticarəti təşviq edəcək

Hər iki ölkə qarşılıqlı ticarətdə güzəşt siyasətinin genişləndirilməsi üçün yeni hüquqi çərçivənin yaradılmasını da nəzərdə tutur. Təşəbbüslərə əsasən, ölkələr arasında idxal strukturunun hərtərəfli təhlil edilməsi və müvafiq qərarların verilməsi, dərman vasitələrinin və ağıllı mobil telefonların ixracının artırılması, digər ticari ideyalar üzərində mexanizmlər hazırlanır. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi vergi və gömrüklə bağlı məsələlər müzakirə olunur və bunların hər biri biznes dairələri və işgüzar insanları yeni bazarlara daxil etmək məqsədi daşıyır. Pakistan Baş nazirinin səfəri çərçivəsində, Azərbaycanın Dövlət Gömrük Komitəsi ilə Pakistan Federal Gəlirlər Şurasının Gömrük Xidməti arasında elektron məlumat mübadiləsi haqqında imzalanan Anlaşma Memorandumu bu istiqamətdə yeni hüquqi çərçivə sayıla bilər. Sənəd mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, para-tariflərin və qeyri-tarif manelərinin ləğv olunması, iqtisadi əlaqələrin harmonik inkişafı vasitəsilə ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılmasını təmin edəcək.

Həmçinin Pakistanın Ticarət Nazirliyi ilə Azərbaycanın müvafiq iqtisadi qurumları arasında tranzit və güzəştli ticarət sazişi üzrə danışıqlar davam etdirilir ki, bu da nəqliyyat-ticarət münasibətlərində tənzimləmələri nəzərdə tutur. Yeri gəlmişkən, artıq Azərbaycanın Ticarət Palatasının İslamabadda nümayəndəliyi təsis edilib, yaxın vaxtlarda Pakistan Ticarət Palatasının nümayəndəliyinin Bakıda fəaliyyətə başlaması gözlənilir. Nəticədə, bu təsisatlar ikitərəfli ticarətin təşviqində mühüm platforma olacaq.

### Azərbaycan Pakistanın etibarlı yanacaq təminatçısına çevrilir

Azərbaycan Pakistanın neft-yanacaq bazarında da əsas etibarlı tərəfdaş hesab edilir və İslamabad öz yanacaq ehtiyaclarının ödənilməsində ölkəmizin yanacaq emalı infrastrukturları qurmasını müsbət qarşılayır. Nəzərə alsaq ki, bu ölkə il ərzində neft və təbii qaza 40 milyard dollara yaxın vəsait xərcləyir və regiondakı mürəkkəb geosiyasi hadisələrlə əlaqədar İran-Türkmənistan-Əfqanıstan-Pakistan kəməri ilə nəql edilən yanacağın daşınmasında problemlər meydana çıxdığından fasilələr yaranır, ona görə də karbohidrogen enerjisi ehtiyacını ödəmək üçün Pakistanın Azərbaycan kimi etibarlı tərəfdaşa ehtiyacı artır. Fevralın 24-də Dövlət Neft Şirkəti (SOCAR) ilə "Pakistan Refinery Limited" (PRL) və "Pakistan State Oil Company Limited" şirkəti arasında imzalanan Anlaşma Memorandumu da məhz bu istiqamətdə əməkdaşlığın təmin olunmasında mühüm rol oynayacaq. "SOCAR Trading SA" ilə "Pakistan State Oil Company Limited" şirkəti arasında Anlaşma Memorandumu Azərbaycanın neft məhsullarının bu ölkəyə çatdırılması üçün hüquqi baza olacaq. Eləcə də, SOCAR-la "Frontier Works Organisation" və "Pakistan State Oil Company Limited" şirkəti arasında üçtərəfli saziş də yanacaq təminatında dayanıqlı yeni mərhələ açacaq. "SOCAR Trading SA" ilə "Pakistan LNG Limited" arasında mayeləşdirilmiş təbii qaz yüklərinin alqı-satqısı ilə bağlı Çərçivə Sazişinə əsasən, Azərbaycan bu ölkəyə LNG qazı ixrac edəcək.

Azərbaycandakı sağlam biznes mühiti və investisiya iqlimi pakistanlı iş adamlarının ölkəmizin yüngül sənaye, turizm, İKT, əczaçılıq, aqrar sahələrində təmsil olunması üçün dərin zəmin yaradır. Pakistanın çox inkişaf etmiş əczaçılıq sahəsi mövcuddur, dünyanın bir çox ölkəsinə dərman preparatları ixrac edir. Bu ölkədə istehsal olunan 90 adda məhsul Azərbaycanda qeydiyyatdan keçirilib və dərman təchizatında payı daha da artır. Bu baxımdan birgə əməkdaşlıq Azərbaycanda yeni inkişaf edən əczaçılığın madditexniki bazasının formalaşmasında və müasir tibbi klasterin qurulmasında mühüm rol oynaya bilər.

### Aqrar sahədə yeni imkanlar

Pakistanda aqrar sahədə son illərdə inkişaf dinamikası müşahidə edilir və bu istiqamətdə azərbaycanlı iş adamları ilə intensiv təmasların artması da nəzərə çarpır. Bakıda imzalanan "Azərbaycan Respublikası Hökuməti ilə Pakistan İslam Respublikası Hökuməti arasında bitki karantini və mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş", "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə Pakistan İslam Respublikasının Milli Ərzaq Təhlükəsizliyi və Tədqiqatı Nazirliyi arasında kənd təsərrüfatı sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu" qeyd edilən sektorda əlaqələrin inkişafında əsaslı dönüş yarada bilər.

Azərbaycanın İqtisadiyyat Nazirliyi ilə Pakistanın Kommunikasiyalar və Özəlləşdirmə Nazirliyi arasında dövlət əmlakının özəlləşdirilməsi sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu özəlləşdirmə prosesində hər iki ölkənin səhmdarlar qrupunun yer alması, özəl layihələrə cəlb edilməsi baxımından fürsətlər açır. Həmçinin ölkələr arasında mineral ehtiyatlar və geologiya sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu da mədənçıxarma sənayesində birgə səylərin əlaqələndirilməsini, qiymətli metalların istismarında yaxın iştirakını nəzərdə tutur.

İqtisadi əməkdaşlığın digər istiqaməti maliyyə-bank sahəsini nəzərdə tutur. Bakı Fond Birjası (BFB) ilə və Pakistan Fond Birjası (PSX) arasında imzalanmış memoranduma əsasən, tərəflər kapital bazarlarına dair əməkdaşlıq əlaqələrini gücləndirmək, maliyyə xidmətləri sektorlarında qarşılıqlı inkişafı təşviq etmək niyyətindədir.

Azərbaycan regionun güclü sərmayədarı kimi son illərdə bir çox ölkənin investisiya bazarında iddialı layihələr icra edir, yeni sənaye-təchizat şəbəkələri qurur. Bu baxımdan Pakistanın da investisiya sektorunda çoxsaylı layihələr icra etmək və iqtisadiyyatına töhfə vermək niyyətindədir. İlkin ssenariyə əsasən, ölkəmiz Pakistana 2 milyard dollar sərmayə yatıracaq.

### Nəqliyyat dəhlizləri regionda yeni körpü yaradır

Bakı-İslamabad əməkdaşlığı həm Mərkəzi Asiya, həm də Cənubi Qafqaz arasında əlaqələrin genişlənməsinə də güclü zəmin yaradır. Hər iki ölkə Orta Dəhlizin əsas coğrafi hüdudlarında yer alır və Şərqlə Qərb arasında körpü rolunu oynayır. Eyni zamanda, Pakistan Şimal-Cənub nəqliyyat alyansında da iştirakçı kimi öz səylərini artırmaqdadır, son bir ildə mövcud infrastrukturlarını yeniləməsi, dəmir yolu xətlərini bu dəhlizə inteqrasiya etməsi böyük bir coğrafiyada vahid dəmir yolu ailəsinin formalaşmasına səbəb olmaqdadır. Bu baxımdan müasir nəqliyyat-kommunikasiya coğrafiyalarında strateji mövqe tutan Azərbaycan və Pakistan bölgənin tranzit landşaftının zənginləşməsinə də töhfə verir.

Pakistanın türkdilli dövlətlərlə sıx bağlantısının olması və son illərdə Türkiyə-Azərbaycan-Pakistan arasında hərbi, iqtisadi-ticarət və siyasi sahələrdə əməkdaşlıq zəncirinin möhkəmlənməsi İslamabadın Mərkəzi Asiyanın türk dövlətləri də daxil olmaqla böyük bir geoiqtisadi paltformada birləşməsinə səbəb olacaq. Bu layihələr faktiki olaraq trans-nəqliyyat-logistika habı çərçivəsində Fars körfəzinin və Xəzər dənizinin birləşməsini də təmin edəcək.

### Turizmin inkişafı üçün yeni aviareyslər açılacaq

Azərbaycan və Pakistan turizm sahəsində də əməkdaşlığı artırmaq niyyətindədir. Pakistanın Azərbaycandakı ekoturizmə və digər turizm sənayelərinə böyük marağı xüsusi nəzərə çarpır, son illərdə ölkəmizə səyahət edən turistlərin sırasında pakistanlıların dinamikasında da artım qeydə alınmaqdadır. Prezident İlham Əliyevin bəyan etdiyi kimi iki ölkə arasında turizm əlaqələrində xüsusi olaraq dinamizm hiss olunur və bu məqsədlə Bakı-İslamabad, Bakı-Kəraçi, Bakı-Lahor arasında birbaşa uçuşlarının təmin edilməsi müzakirə olunub. Bütün bu amillər turizm sahəsində ikitərəfli əlaqələrin yeni mərhələyə çatdırılmasına impuls verəcək. Eləcə də hökumətlər arasında hava əlaqəsi haqqında sazişin imzalanması turizm axınlarına stimul verə biləcək addım hesab oluna bilər.

### Müdafiə sənayesində uğurlu başlanğıc

İki dost ölkə müdafiə sənayesi sahəsində də möhkəm təməllərin əsasını qoyub. Azərbaycan bu ölkədən müasir müdafiə vasitələri, sənaye ləvazimatları və digər hərbi təyinatlı məhsullar alır. Eyni zamanda, hər iki ölkə birgə güclü və modern müdafiə sənayesi infrastrukturu üzərində yeni sənaye sahələrini yaratmağı planlaşdırır. Səfər çərçivəsində bu mövzu da əsas diqqət mərkəzində olub və artıq birgə istehsal müəssisələrinin yaradılması razılaşdırılıb.

Beləliklə, Azərbaycan-Pakistan biznes-forumu çərçivəsində iki ölkənin iş adamları arasında aparılan birgə müzakirə və məsləhətləşmələr, keçirilən müxtəlif təqdimatlar imkanları qiymətləndirmək və səfərbər etmək baxımından mühüm platforma rolunu oynayacaq. İmzalanmış sazişlər və forumda elan edilən prioritetlər iqtisadi münasibətləri keyfiyyətcə yeni mərhələyə çatdırmaqla, iqtisadi vizyonun ikitərəfli formatını daha da möhkəmləndirəcək.

**ELBRUS CƏFƏRLİ**

# Siyasi dialoq: Ümummilli məsələlərdə həmrəylik mühiti...

## “Suverenliyin bərpası: siyasi müstəvidə yeni münasibətlər sisteminin formalaşdırılması” adlı dəyirmi masa mühüm siyasi müzakirə platformasıdır

Qlobal miqyasda hökm sürən mürəkkəb şəraitdə Azərbaycanın öz sabit inkişaf trayektoriyasında inamla irəliləməsi olduqca mühüm bir göstəricidir -beynəlxalq müstəvidə regional lider statusu qazanmağımız, geostrateji aktora çevrilməyimiz, xüsusilə post-müharibə dövründə bölgə ilə bağlı proqnozlaşdırılan siyasi proseslərə yön verməyimiz qlobal mühitdə həm nüfuzumuzun artmasına, həm də layiqli yer tutmamıza vəsilə olub. Paralel olaraq daxili arenada yaranan yeni siyasi münasibətlər sistemi, yeni siyasi konfiqurasiya da milli birliyimizin möhkəmlənməsinə, milli gücümüzün daha da artmasına yol açıb. Təbii ki, bütün uğurlar birmənalı şəkildə Prezident İlham Əliyevin uğurlu siyasətinin nəticəsidir - dövlətimizin inkişaf strategiyası mühüm təməllərə əsaslanır. Bu gün Azərbaycanda heç bir dövlətdə rast gəlinməyəcək reallıq formalaşıb:

- Ölkədə bütün sosial təbəqələrin nümayəndələri dövlət və milli maraq kontekstini ən vacib amil sayır;
- Siyasi konfiqurasiya sağlam ideoloji tarazlığı özündə əks etdirir - milli maraqlar, dövlət maraqları ön planda tutulur;
- Daxili siyasi mühit dövlətin milli birlik simvolu kimi çıxış edir -Azərbaycandakı mövcud sabit və təhlükəsiz siyasi durum həm də siyasi palitranın mövcud reallıqlarda dövlət mənafeyindən irəli gələn addımlara və ya fikirlərə əsaslanmasından qaynaqlanır. Siyasi mühitin milli maraqlar ətrafında sıx birləşməsi, dövlətin inkişaf hədəflərinin düzgün təhlili, strateji inkişaf yolundakı inam və etimad yeni siyasi konfiqurasiyanın üstünlüklərini tam şəkildə özündə ehtiva etmiş olur.

### Yeni siyasi konfiqurasiya: Mühüm bir addım...

Dövlətin siyasi mühitlə əlaqələri son illərdə olduqca vacib konturlar üzrə müəyyənləşdirilir. Müxtəlif məsələlər üzrə siyasi fikir mübadiləsi gerçəkləşir -qanunvericiliyin təkmilləşdirilməsi, partiyaların fəaliyyəti üçün zəruri addımların atılması, tam yeni münasibətlər sisteminin formalaşdırılması ölkəmizin inkişafı üçün olduqca vacib əsaslar yaradan amillərdəndir.

Bugünlərdə keçirilmiş “Suverenliyin bərpası: siyasi müstəvidə yeni münasibətlər sisteminin formalaşdırılması” mövzusunda dəyirmi masa bu istiqamətdə olduqca mühüm bir addım kimi yadda qaldı. Qeyd edək ki, görüş siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın inkişaf etdirilməsi, eləcə də siyasi dialoq mühitinin təşviq olunması məqsədi daşıyıb və Prezident Administrasiyası tərəfindən təşkil olunub. Dəyirmi masada Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Ədliyyə və Maliyyə nazirliklərinin, Hesablama Palatasının, 24 siyasi partiyanın nümayəndələri, həmçinin tanınmış alimlər, politoloqlar, siyasi şərhçilər, internet televiziya kanalları və onlayn media subyektlərinin nümayəndələri iştirak ediblər.

### Yeni reallıqların siyasi mühitin inkişafına verdiyi töhfə

Bəli, yeni yaranan siyasi konfiqurasiyanın əsasında siyasi dialoq mühitinin formalaşdırılması dayanır ki, bu da, Azərbaycanda siyasi sistemi möhkəmləndirmək, siyasi münasibətləri sağlam zəmində gücləndirmək üçün vacib şərtdir. Prezident İlham Əliyev hər zaman çıxışlarında bildirib ki, genişmiqyaslı islahatlar dövründə siyasi islahatlar mütləq aparılmalıdır: “Siyasi islahatlar partiyalararası geniş dialoq aparılmadan həyata keçirilə bilməz. Bir partiya - hakim partiya təkbaşına siyasi dialoq apara bilməz. Çünki dialoq üçün tərəf-müqabilləri lazımdır və ilkin təşəbbürat müsbətdir. Bu təşəbbüs heç bir şərt qoymadan həyata keçirilir”.

Qeyd edək ki, bu gün siyasi partiyaların siyasi sistemə töhfələr verməsi üçün geniş imkanlar yaradılıb. Parlamentdə çoxpartiyalı sistemin mövcudluğu ölkədə siyasi dialoq mühitinin daha da münbitləşməsində əsaslı rol oynayır. Eyni zamanda, yuxarıda vurğulanan formatda keçirilən və siyasi dialoqun inkişafına xidmət göstərən tədbirlər, görüşlər bu yeni münasibətlər sistemini daha da irəliyə daşıyır. Tədbirdə çıxış edən Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev bildirib ki, Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı olaraq müxtəlif siyasi qüvvələr arasında konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq və ümummilli məsələlərdə həmrəylik mühiti təşviq olunur.





### Yeni qanun: Partiya sisteminin keyfiyyətcə yeni inkişaf mərhələsi...

Son bir neçə ildə Azərbaycanda aparılan siyasi islahatlar siyasi mühitin inkişafına müsbət mənada mühüm təsirlər göstərib - yeni siyasi reallıqlar yeni çağırışları formalaşdırıb ki, bunlardan biri, bəlkə də ən ümdələrindən sayılan “Siyasi partiyalar haqqında” qanunvericiliyin daha təkmil, dövrün tələblərinə cavab verəcək səviyyədə hazırlanması olub. Qeyd edək ki, ölkəmizdə 2 ildən artıqdır ki, qəbul olunmuş yeni qanunun hazırlanmasında Venesiya Komissiyasının siyasi partiyaların fəaliyyətinin tənzimlənməsi ilə bağlı tövsiyələri də nəzərə alınıb. Qanunun hazırlanması ilə məşğul olan ekspert Komissiyası tərəfindən iyirmi ölkənin bu sahədəki təcrübəsi diqqətlə öyrənilib və araşdırılıb. Qanun layihəsinin hazırlanmasında ölkədə olan siyasi partiyalardan gələn təkliflər də mühüm rol oynayıb. İrəli sürülən təkliflər əsasında qanun layihəsində bir sıra mühüm dəyişikliklər edilib. Bu yeni qanun ölkədə siyasi partiyalar arasındakı münasibətləri də yeni məcraya yönləndirdi - siyasi sistemin formalaşmasında, inkişafında əsas komponent olaraq çıxış edən siyasi partiyalar yenilənmiş, dövrün tələblərinə cavab verən bu qanunvericilik sənədi əsasında özlərinin fəaliyyətlərini müəyyənləşdirdilər.

Tədbirdəki çıxışında yeni siyasi konfiqurasiya haqqında söhbət açan Ə.Vəliyev dövlət idarəetməsinin davamlı inkişafı naminə cəmiyyətdə mövcud potensialın səfərbər olunmasında siyasi partiyaların rolunu vurğulayaraq, sağlam əməkdaşlıq mühitinin sabitliyi və tərəqqini təmin edən əsas amillər olduğunu ifadə edib. Administrasiya rəsmisi 2022-ci ilin dekabrında qəbul edilmiş “Siyasi partiyalar haqqında” Qanunun əhəmiyyətindən danışarkən bildirib ki, yeni Qanun ölkənin partiya sisteminin keyfiyyətcə daha böyük inkişafına zəmin yaratmaqla, bütün siyasi partiyaların ilkin imkanlarını tarazlaşdırıb və partiyaların yeni siyasi konfiqurasiyanın formalaşması prosesində aparıcı instituta çevrilməsinə xidmət edib.

### Seçki bərabərliyi: Demokratik münasibətlərin təzahürü...

Qeyd edildiyi kimi, siyasi partiyalar haqqında yeni qanunun qəbulu, yeni siyasi konfiqurasiyanın formalaşdırılması ölkədə siyasi münasibətlərin tənzimlənməsində mühüm üfüqlər formalaşdırıb. Onsuz da həm Konstitusiya, həm də Seçki Məcəlləsi ölkədəki siyasi qüvvələrə, siyasi təşkilatlara bərabər rəqabət imkanları tanıyır - digər tərəfdən, hakimiyyət atdığı addımlar, verdiyi qərarlarla Azərbaycanda ədalətli seçki keçirilməsində maraqlı olduğunu hər zaman nümayiş etdirir. Çünki demokratik seçki ölkədə sabit vətəndaş cəmiyyətinin inkişafının əsas təməl prinsipi sayılır. Ötən illərdə keçirilən seçkilərin beynəlxalq standartlara cavab verməsi də bunu təsdiqləyir. Seçkilərdə iştirak edən siyasi qüvvələrə bərabər şəraitin yaradılmasının özü demokratik seçki mühitinin inkişafının göstəricilərindən biridir. Siyasi baxışlarından asılı olmayaraq bütün qüvvələrə təbliğat prosesində bərabər şəraitin yaradılması seçicilərin azad seçim etməsində vacib rol oynayır. Azərbaycanda seçkiləri müşahidə edən beynəlxalq missiyalar da ölkəmizdə keçirilən seçkilərin bütün tərəflərə mübarizə aparmaq üçün bərabər şəraitin yaradıldığını öz rəylərində əks etdirirlər. Paralel olaraq “Siyasi partiyalar haqqında” yeni qanun da partiyaların seçki prosesində iştirakı üçün geniş imkanlar açır. Bu qanun müasir dövrün tələblərinə tam cavab verir və ölkədə fəaliyyət göstərən partiyaların mütləq əksəriyyəti tərəfindən dəstəklənir.

Dəyirmi masada 2024-2025-ci illərdə keçirilən Prezident, parlament və bələdiyyə seçkilərində siyasi partiyaların fəal iştirakı haqqında danışan Ə.Vəliyev partiyaların mütləq əksəriyyətinin seçkilərdə iştirakını demokratik münasibətlərin təzahürü kimi dəyərləndirib və bu iştirakçılığın partiyaların siyasi institut kimi daha da təkmilləşməsinə və inkişafına müsbət təsirlərini qeyd edib.

### Qarşılıqlı əlaqə: Dövlətimizin inkişafı üçün...

Qeyd edək ki, baş tutan dəyirmi masa siyasi partiyalarla müvafiq dövlət qurumları arasında mühüm bir körpü rolunu da oynayır - Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Ədliyyə və Maliyyə nazirliklərinin, Hesablama Palatasının nümayəndələrinin siyasi partiyaların fəaliyyətinin tənzimlənməsinin müxtəlif aspektlərinə toxunaraq, dövlətin mövcud istiqamətdə gördüyü işlər barəsində ətraflı məlumatlar verməsi dövlət ilə siyasi spektr arasındakı əlaqələrin daha da təkmilləşməsinə yol açır. Qeyd edək ki, dəyirmi masada siyasi partiya üzvlərinin reyestrinin aparılması, bu sahədə qanunvericilikdə edilmiş son dəyişikliklər, siyasi partiyaların seçkilərdə fəal iştirakı, partiyalara dövlət büdcəsindən ayrılan maliyyə yardımları, bu yardımların xərclənməsi, hesabatlılıq, partiya sədrlərinin mediadakı fəaliyyəti, onların siyasi dialoqun dərinləşməsi prosesində rolu və digər bu kimi məsələlər də geniş müzakirə olunub.

### Ən mühüm prioritet: Milli birliyimiz...

Azərbaycan dövləti ölkədə siyasi fəaliyyətlə məşğul olmaq istəyən bütün vətəndaşlar üçün imkan və şərait yaradır. Siyasi partiyalara dövlət tərəfindən maliyyə ayrılır, eyni zamanda, siyasi partiyalar ofislə təmin edilirlər. Vurğulandığı kimi, seçki prosesində siyasi palitranın bütün üzvlərinə bərabər şərait yaradılır. Təbii ki, siyasi partiyalar da öz fəaliyyətlərində mühüm məqamları ön planda saxlamalıdırlar - milli maraqların qorunması, milli birliyin və həmrəyliyin daha da gücləndirilməsi. Bu prinsiplər siyasi-ideoloji düşüncəsindən, fərqli baxışından asılı olmayaraq bütün partiyalar üçün əsas prioritet kimi qəbul edilməlidir. Qeyd edək ki, adıçəkilən dəyirmi masada çıxış edən partiyaların nümayəndələri də birmənalı olaraq bəyan ediblər ki, milli maraqlar və milli birliyin qorunması naminə ölkənin bütün vətənpərvər və intellektual qüvvələrinin səfərbər olması zəruridir. Tədbirdə çıxış edən siyasi partiyaların sədrləri və təmsilçiləri ümummilli məsələlərdə hər zaman açıq əməkdaşlığa hazır olduqlarını bildirərək cəmiyyətin parçalanmasına yönəlmiş istənilən təxribatı sərt şəkildə qınayıblar.

Xatırladaq ki, dəyirmi masada 24 siyasi partiya - Yeni Azərbaycan Partiyası, Vətəndaş Həmrəyliyi Partiyası, Böyük Quruluş Partiyası, Ana Vətən Partiyası, Ədalət, Hüquq, Demokratiya Partiyası, Demokratik İslahatlar Partiyası, Azərbaycan Demokratik Maarifçilik Partiyası, Milli Cəbhə Partiyası, Azərbaycan Milli İstiqlal Partiyası, Böyük Azərbaycan Partiyası, REAL Partiyası, Haqq Ədalət Partiyası, Azərbaycan Ümid Partiyası, Azərbaycan Demokrat Partiyası, Azərbaycan Xalq Partiyası, Vəhdət Partiyası, Ədalət Partiyası, Klassik Xalq Cəbhəsi Partiyası, Milli Dirçəliş Hərəkatı Partiyası, AĞ Partiyası, Azad Vətən Partiyası, Müasir Müsavat Partiyası, Gələcək Azərbaycan Partiyası və Yeni Zaman Partiyasının nümayəndələri iştirak ediblər. Eyni zamanda, tədbirdə siyasi ekspertlər, ictimaiyyət nümayəndələri, elm adamları və media təmsilçiləri də təmsil olunublar.

*Pərviz SADAYOĞLU*

# Qlobal əhəmiyyət daşıyan humanitar diplomatiya

## Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifə Bəhreyn Krallığında səfərdə olan Heydər Əliyev Fondunun nümayəndə heyətini qəbul edib

Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə reallaşdırdığı çoxsaylı layihələrlə dövlət siyasətinə güclü dəstək verir. Eyni zamanda, Fondun ölkə hüdudlarından kənarda həyata keçirdiyi humanitar məzmunlu geniş fəaliyyət də təqdirlə qarşılanır. Deyə bilərik ki, Fond dünyada Azərbaycanın xoşməramlı rəmzinə çevrilib. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın bu günlərdə Ər-Riyad Beynəlxalq Humanitar Forumunda iştirakı quruma və bütövlükdə ölkəmizə beynəlxalq səviyyədə marağın artdığını əyani şəkildə təsdiqləyir.

### Azərbaycanda və digər ölkələrdə həyata keçirilən humanitar layihələr

Dünyanın indiki reallıqları humanitar nöqteyi-nəzərdən olduqca kədərlidir.Yeni növ koronavirus pandemiyasının, ayrı-ayrı regionlarda səngiməyən müharibələrin, iqlim dəyişmələrinin fəsadları çox ağırdır. Belə reallıq fonunda humanitar diplomatiyanın qlobal əhəmiyyət daşıdığı aydın şəkildə dərk olunur. Forumda Leyla Əliyeva "Qlobal humanitar könüllülük: perspektivlər və hədəflər" adlı paneldə çıxış edərək Heydər Əliyev Fondu tərəfindən Azərbaycanda və digər ölkələrdə həyata keçirilən humanitar layihələr barədə məlumat verib.

Azərbaycan da müstəqilliyinin ilk vaxtlarından humanitar böhranla üzləşən ölkədir. Ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistanın işğalına məruz qalan ərazilərimizdə təxminən bir milyon insan ev-eşiyini tərk etmək məcburiyyətində qaldı. Onlar uzun illər boyunca çadırlarda, vaqonlarda, yararsız binalarda yaşadılar. Bu, əsl humanitar fəlakət idi.

Azərbaycan çətinliklərin öhdəsindən gəlməyi, üç onillikdən sonra ərazi bütövlüyünü və suverenliyini təmin etməyi bacardı. Leyla Əliyeva forumun gündəliyindəki məsələlərin qlobal əhəmiyyətini vurğulayaraq, Azərbaycanın müstəqilliyini yenidən əldə etdikdən sonra aparılan uğurlu siyasət nəticəsində humanitar yardım alan dövlətdən donor dövlətə çevrildiyini bildirib. Heydər Əliyev Fondunun regionun nəhəng qeyri-hökumət təşkilatı kimi 2004-cü ildən genişmiqyaslı humanitar layihələr həyata keçirdiyini qeyd edib. Fondun bir sıra istiqamətlərdə fəaliyyətini önə çəkən Leyla Əliyeva təhsil, səhiyyə və sosial sahələr üzrə layihələrin beynəlxalq səviyyəni əhatə etdiyini, bu fəaliyyətin tərəfdaş təşkilatlar və ölkələr tərəfindən yüksək qiymətləndirildiyini bildirib.

Son illərdə respublikamızda Mehriban xanım Əliyevanın təşəbbüsü əsasında könüllülük institutunun yaranması Azərbaycanın müsbət reallıqlarından biridir. Hazırda ölkəmizdə sıralarında minlərlə gənci birləşdirən böyük könüllülər ordusu var. O cümlədən könüllülər humanitar layihələrin həyata keçirilməsində fəal iştirak edirlər. Heydər Əliyev Fondunun vitse-prezidenti Azərbaycanın könüllülük fəaliyyəti üzrə uğurlu modelə sahib olduğunu bildirərək, mövcud humanitar problemlərin həllində könüllülük proqramlarının inkişaf etdirilməsinin əhəmiyyətini qeyd edib.



### Bəhreyn Krallığında səmimi görüş

Bəhreynin Kralı Həməd bin İsa Al Xəlifə Bəhreyn Krallığında səfərdə olan Heydər Əliyev Fondunun nümayəndə heyətini qəbul edib. Leyla Əliyeva və Arzu Əliyeva ilə görüşdə iki ölkə arasında mövcud əlaqələr, dostluq və əməkdaşlıq münasibətləri, bu əlaqələrin genişləndirilməsi üzrə layihələr, o cümlədən Heydər Əliyev Fondunun beynəlxalq layihələri müzakirə olunub. Kral Həməd bin İsa Al Xəlifə Azərbaycanın və Azərbaycan Prezidenti İlham Əliyevin regionda və dünyadakı nüfuzunu xüsusi qeyd edərək ölkəmizdə həyata keçirilən bərpa-quruculuq işlərini yüksək qiymətləndirib.

Ötən ilin noyabr ayında respublikamız COP29-a böyük uğurla ev sahibliyi etməklə iqlim çağırışlarına necə həssaslıqla yanaşdığını ortaya qoydu. Konfransda Azərbaycanın səyləri sayəsində konkret nəticələr əldə olundu. Həməd bin İsa Al Xəlifə Bakıda keçirilən COP29 tədbirinin uğurla təşkili münasibətilə bir daha Azərbaycanı təbrik edib və ölkəmizin beynəlxalq tədbirlərə daim yüksək səviyyədə ev sahibliyi etdiyini, bu beynəlxalq layihələrin həyata keçirilməsinə Azərbaycanın göstərdiyi müntəzəm dəstəyi xüsusi vurğulayıb.

Azərbaycan və Bəhreyn Krallığı arasında əlaqələr dostluq və əməkdaşlığa əsaslanır. 6 noyabr 1996-cı il tarixində iki ölkə arasında diplomatik münasibətlər qurulub. Görüşdə Azərbaycan və Bəhreyn arasında davam edən siyasi dialoqun iqtisadiyyat və mədəniyyət sahələrində də əməkdaşlığa təkan olduğu bildirilib.

Qeyd edilib ki, MAMA "Ana təbiət" beynəlxalq incəsənət layihəsinin bir aya yaxın müddətdə paytaxt Manamada təqdim olunması ölkələrimiz arasında sıx mədəni əlaqələrin mövcudluğuna bariz nümunədir. 2024-cü ildə Bakıda Heydər Əliyev Mərkəzindəki təqdimatından sonra Bəhreyn bu beynəlxalq layihəyə ev sahibliyi edən ilk ölkədir. Bildirilib ki, mədəni layihələr Azərbaycan və Bəhreyn arasında dövlət səviyyəsində mövcud əlaqələrin daha da genişlənməsinə, xalqlarımız arasında münasibətlərin dərinləşməsinə öz töhfəsini verəcək. Bu istiqamətdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun müxtəlif sahələri əhatə edən beynəlxalq layihələrinin əhəmiyyəti qeyd olunub.

Görüşdə Heydər Əliyev Fondunun digər ölkələrdə həyata keçirdiyi humanitar layihələr, o cümlədən Leyla Əliyeva və Arzu Əliyevanın Fondun təhsil və mədəniyyətin inkişafı üzrə layihələrdəki fəaliyyətləri xüsusi vurğulanıb.

*Mübariz ABDULLAYEV*

# Real hədəf!

## Vətənə qayıdış yalnız istək deyil, həm də milli iradənin gücü ilə reallaşacaq




Tarix xalqların yaddaşıdır və bu yaddaşın silinməsinə yönələn cəhdlər heç vaxt uğur qazanmır. Bu gün biz Qərbi Azərbaycana qayıdışın təkcə bir ideya deyil, real bir hədəf olduğunu dərk edirik. İllər öncə zorla öz yurdlarından qovulan azərbaycanlıların yeni nəsli həmin torpaqların tarixi gerçəkliyini yaşatmaq və gələcəkdə oraya qayıtmaq əzmi ilə yetişir. Bu isə yalnız istək və duyğularla deyil, bilik, elm və strategiya ilə həyata keçirilə biləcək bir prosesdir.

Qərbi Azərbaycan yalnız xəritələrdə deyil, xalqımızın qəlbində mövcuddur. O torpaqlar bizim dədə-baba yurdlarımızdır, kimliyimizin ayrılmaz hissəsidir. Zaman keçdikcə həmin ərazilərin tarixi və mədəni irsi silinməyə çalışılsa da, bu həqiqətləri unutdurmaq mümkün deyil. Çünki hər məhv edilmiş abidə, hər dəyişdirilmiş toponim, əslində, həmin torpaqların bizə aid olduğunu bir daha təsdiqləyir. Bizim vəzifəmiz isə yalnız xatırlamaq deyil, həm də bu həqiqətləri daha da gücləndirmək, onların unudulmasına imkan verməməkdir. Bu baxımdan, elm, mədəniyyət və diplomatiya sahəsində çalışan hər bir azərbaycanlı bu məsələyə öz töhfəsini verməlidir.

Bu gün biz tariximizi qorumaqla yanaşı, onu yeni nəslə ötürməliyik. Qərbi Azərbaycanın tarixi ilə bağlı maarifləndirmə aparmaq, beynəlxalq ictimaiyyətə həqiqətləri çatdırmaq və bu istiqamətdə müxtəlif təşəbbüslərdə iştirak etmək hər birimizin borcudur. Bunun üçün müasir kommunikasiya vasitələrindən geniş istifadə etməli, sosial media platformalarında, beynəlxalq tədbirlərdə və akademik müzakirələrdə öz sözümüzü deməliyik. Eyni zamanda, diaspora fəaliyyətini daha da gücləndirməli, beynəlxalq təşkilatlarda aktiv rol alaraq, tarixi ədalətin bərpa olunması üçün çalışmalıyıq. Xaricdə təhsil alan və ya fəaliyyət göstərən azərbaycanlılar, bu prosesdə xüsusi rol oynayaraq, həqiqətləri dünya auditoriyasına çatdırmalıdırlar.

Bundan əlavə, mədəniyyətimizi yaşatmaq və dünyaya tanıtmaq da mühüm məsələdir. Qərbi Azərbaycanın musiqisi, folkloru, mətbəxi və adət-ənənələri bizim milli varlığımızın bir hissəsidir. Bu dəyərləri gələcək nəsillərə ötürmək, onları qoruyub inkişaf etdirmək üçün müxtəlif mədəni layihələr həyata keçirilməlidir. Hər bir gənc öz sahəsində bu prosesə töhfə verməlidir. Kitabların yazılması, sənədli filmlərin çəkilməsi, sərgilərin və tədbirlərin təşkili bu istiqamətdə atıla biləcək ən önəmli addımlardandır. Bu layihələr təkcə Azərbaycan daxilində deyil, beynəlxalq səviyyədə də həyata keçirilməlidir ki, dünya ictimaiyyəti gerçək tarixi öyrənə bilsin.

Qayıdış təkcə fiziki deyil, həm də mənəvi hazırlıq tələb edir. Biz, gənclər, daha bilikli, daha məqsədyönlü olmalıyıq. Tarix bizə öyrədir ki, xalqın birliyi onun ən böyük gücüdür. Bu gün biz nə qədər həmrəy və qətiyyətli olsaq, sabah o torpaqlara bir o qədər əminliklə qayıda bilərik. Çünki vətənə qayıdış yalnız istək deyil, həm də milli iradənin gücü ilə reallaşacaq bir gerçəklikdir. Tarixi ədalətin bərpa olunması təkcə dövlət siyasəti deyil, xalqın öz köklərinə bağlılığı və haqqa olan inamının nəticəsidir. Bu inamı qoruyaraq, gələcək nəsillərə ötürmək isə bizim əlimizdədir. Biz, bir millət olaraq, öz torpaqlarımıza sahib çıxmalı və onları yalnız xəyalımızda deyil, real həyatda da yaşatmalıyıq.




*Səkinə Qəhrəmanova*

# Azadlığın bəyaz rəngi - Xankəndidə qar xatirələri

Fevral səhərinin sübh şəfəqi Xankəndi şəhərini işıqlandırır, qar dünən gecədən qalan bütün ayaq izlərini örtüb, təbiəti hüzur və sükuta qərq edib. Belə olanda düşünürəm ki, təbiətlə söhbətləşməyin tam zamanıdır. Bəyaz xalçalı küçələrlə addımlayaraq ana təbiətlə görüşə gedirəm. Ağacların incə budaqları donmuş qar dənələri ilə bəzənib. Bu şaxtalı havada qollu-budaqlı çinarlar öz məğrurluğu ilə soyuğa meydan oxuyur. Onların illərlə bu torpaqda kök salması Xankəndiyə öz kökləri ilə bağlı olan insanların qayıdışını tərənnüm edir.

Bu gün ana təbiət əsrarəngizliyinin bütün notlarını nümayiş etdirir. Qar dənələri keçmişdən qalan acı xatirələri silmək üçün torpağın üzərini örtür. Buludların arasında gizlənən Günəş şüaları isə qar dənələrini dəyərli almaslara bənzədir. Məncə, bu incə məqamların hər birində təbiət bizə hansısa mesajları verir. Onu duymağa cəhd edirəm, qulağıma pıçıltı ilə deyir:

- Hər şeyin bitdiyi yerdə, həyat yenidən başlaya bilər.

Razı olduğumu bildirmək üçün onun fikirlərini başımla ehmalca təsdiqləyib, yoluma davam edirəm. Hələ sizə danışmalı olduğum çox məqam var. Deyərdim, burada təbiətin gözəlliklərini saymaq üçün geniş bir siyahı lazımdır.

Deyirlər, təbiət insanın ən yaxın dostudur. Onunla söhbət etmək, onun dilini anlamaq, adama həyatın bütün gözəlliklərini bəxş edir. Ağaclar, buludlar, dağlar - hərəsi bir ayrı nəğmə, şeir söyləyir. Onların səsini ürəkdən dinlədikcə biz də bu sehrli aləmin ayrılmaz parçasına çevrilirik.

Küçəmizin başından baxanda uzaqda uca, əzəmətli, başı qarlı, vüqarlı dağlar görünür. Xankəndini nəhəng bir qala kimi əhatələyən dağların sükunəti insanın öz içindəki sükunət axtarışına bənzəyir. Bəzən bu sükunəti pozmaq üçün onları uca səslə salamlayıram. Səsim dağlarda əks olunur. İndi burada qarın altındakı torpaq da, budaqlarda donub qalmış su damcıları da, səssiz gecənin qaranlığında parlayan ulduzlar da həqiqi sahiblərinin səsini, nəfəsini duyur.



Dağların arxasındakı qırmızı işıqları aydın görmək üçün bir-birinə qarışan qarlı zirvələrə doğru yönəlirəm. Mənə görə, dağlar zamanın xatirələrini özündə daşıyan ən məğrur varlıqlardır. Onların hər daşında, qayasında bir hekayə var. Xankəndidə dağlar ən yaxın dostlarımdan birinə çevrilib. Hara getsəm sədaqətli bir müşahidəçi kimi ətrafımda dayanırlar. Onlar mənimlə tez-tez söhbətləşirlər, fəqət fikirləri yalnız küləkli, çovğunlu havalarda aydın sezilir. Külək bizim məktub daşıyan göyərçinimizdir.

Xankəndinin bugünkü mənzərəsi mənə nağıllar aləmini xatırladır. Bu sirli vizuallığın dərinliyində bir məqam da var - azadlıq. Qar sanki azadlığın bəyaz rəngini təsvir edir. Düşünürəm ki, qar azadlıqdırsa, onun örpəyinə bürünən torpaq mübariz xalqımızın simvoludur. İndi Xankəndi şəhərinin mərkəzində dayanıb bu ecazkar mənzərəni izləyəndə azadlığın nə qədər qiymətli olduğunu daha dərindən hiss edirəm.

Səhər saatlarında Günəş şüalarının qarı yavaş-yavaş əritməsi Xankəndinin sehrli mənzərəsini bir az da dəyişir. Təbiətin bu incə gözəlliyi bizə deyir ki, hər şeyin öz vaxtı var. Qarın yağıb torpağı örtməsi kimi biz də zamanla bütün əskikləri tamamlayacağıq. Necə ki, bu günə qədər tamamladıq.

Elə bu dəm, buludlar dağların başında toplanır, bir-birinə qarışır, sanki rəqs edirlər. Ardınca dağların başını duman alır. Burada adətən duman şəhərin havasını təmizləmək üçün bir neçə dəqiqəlik dağlardan aşağı enir. Təbiətlə söhbətim bir andaca mənə hər şeyin nə qədər dərin və əzəmətli olduğunu xatırladır.



Əzəmət demişkən, dağların ətəyində gur işıq yandıran, bütün şəhəri nura boyayan Qarabağ Universitetinin önündən keçirəm. Bayaqdan bir xeyli yeridiyimin fərqinə varır və Qarabağ Universitetinin həyətinə çatanda dayanıb nəfəsimi dərirəm. Bizim buralarda Universitetin həyəti bir növ ziyarətgaha çevrilib. Şəhər sakinləri yollarını tez-tez buradan salır, Universitetin həyətindəki skamyalarda əyləşirlər. Çünki bura təkcə təhsil ocağının binası deyil, həm də illərlə ürəyimizdə bəslədiyimiz arzuların gerçəyə çevrildiyi məkandır. Xoşbəxtik, çünki bir zamanlar işğal altında qalan bu bina indi bölgədə elm və təhsilin əsas ünvanına çevrilib. Həyətdə gəzişən tələbələrin ayaq izləri diqqətimi çəkir, qar üstündəki bu izlər yeni bir gələcəyin xəritəsidir. Ataların məşhur bir kəlamı yadıma düşür, haqq nazilər, amma üzülməz.

Xankəndi şəhərinin mərkəzinə çatıram. Bura şəhərin ən əzəmətli nöqtəsidir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin də qeyd etdiyi kimi, bu qədim şəhərin mərkəzində illərlə separatizmin yuvası olmuş binalarda Azərbaycan bayrağı dalğalanır. Onillər boyu azərbaycanlılara qarşı qətliamlar törətmiş vəhşi canilər isə indi həbsdədirlər...

İndi dayandığım yerdə iki il əvvəl Prezident çıxış etmiş və yeni bir dövrün başladığının anonsunu vermişdi. Bu gün öz gözəlliyi ilə bizi valeh edən bu təbiətin, torpağın, elə Allahın da haqq yolundakı mübarizəmizə duası varmış. Ədalət bərpa oldu, haqq öz yerini tapdı.

Xankəndidə bir fevral səhəridir. Sükut içində gəzişir, qarın xışıltısını dinləyirəm. Bilirəm ki, bu sükutun altında yeni reallıqlar cücərməkdədir.

*Günel ABBAS*

# Ballıcaya 5-ci köç!

## Sakinlərin sayı 595 oldu...

Azad edilmiş torpaqlarımıza qayıdış Azərbaycan Ordusunun möhtəşəm qələbəsi və dövlətimizin yürütdüyü məqsədyönlü siyasət ilə reallaşır. Keçmiş məcburi köçkünlər doğma torpaqlarında bu qələbəni qürur hissi ilə qeyd edirlər. "Böyük Qayıdış" xalqın öz doğma torpaqlarında əmin-amanlıq və rifah içində yaşaması üçün mühüm bir addım, həm də Azərbaycanın tarixi qələbəsinin, ərazi bütövlüyünün bir daha təsdiqidir.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İşğaldan azad edilmiş ərazilərə "Böyük Qayıdış"" istiqaməti üzrə hazırlanmışdır**

## Milli kimliyimizin parçası...

Bu gün Qarabağın azad olunması ilə Ballıca kəndinə də yeni həyat gəlib. Burada artıq keçmişin izlərini bərpa etmək, təbiətin və mədəniyyətin harmoniyasını yenidən qurmaq mümkündür. Ballıca həm də tariximizin, milli kimliyimizin bir parçasıdır.

Ballıca kəndinin yerləşdiyi ərazi Qarabağ silsiləsinin təbii mənzərələri ilə əhatə olunub. Ballıca çayının kənarı yaz fəslində çiçəklənən dağ bitkiləri ilə bəzənir, ətrafa xoş təravət yayılır. Kənd strateji baxımdan əhəmiyyətli mövqedə yerləşir. Dağlıq ərazi müdafiə baxımından əlverişli olduğundan Ballıca keçmişdə bölgənin mühüm nöqtələrindən biri idi.

19-cu əsrin əvvəllərinə qədər Ballıca Gəncə qəzasının Əhmədbəyli kəndinin əhalisi üçün yaylaq yeri olub. Əsrlər boyu burada azərbaycanlı əhali öz ənənəvi yaylaq həyatını qurub, ərazinin havasından, bərəkətli torpaqlarından faydalanıb. Qarabağın digər bölgələri kimi, Ballıca da zəngin təbiəti ilə insanları özünə cəlb etmişdi.

Ballıca kəndi 1992-ci ildən 2020-ci ilə qədər Ermənistan silahlı qüvvələrinin nəzarəti altında olub. İkinci Qarabağ müharibəsindən sonra imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanata əsasən kənd Rusiya sülhməramlılarının nəzarətinə keçib. Lakin 2023-cü il 19-20 sentyabr tarixlərində həyata keçirilən lokal antiterror tədbirləri nəticəsində tamamilə azad edilib.




## Yaddaşlarda dərin izlər buraxan görüş...

Bir neçə gün öncə Xocalı rayonunun Ballıca kəndində bayram əhval-ruhiyyəsi hökm sürürdü. Vətən həsrəti ilə keçən 33 ildən sonra məcburi köçkün həyatları ilə vidalaşıb yenidən doğma yurdlarına qovuşmuş sakinlər sevinc və həyəcan içində onlara bu xoşbəxt günləri yaşadan Prezident İlham Əliyevin gəlişinə hazırlaşırdılar. Hamı intizarla dövlət başçısını gözləyir və əmin idi ki, hər bir azərbaycanlının Prezidenti xocalılıları yeni evlərində daimi məskunlaşmaları münasibətilə təbrik etmək, bu xoş günlərdə hər zamankı kimi onların yanında olacaq və kəndin ən əziz qonağı olacaq. Uşaqdan böyüyə bütün kənd sakinlərinin yaddaşında əbədi iz buraxacaq, unudulmaz tarixə çevriləcək görüş fevralın 19-da baş tutdu

İllərlə doğma yurd həsrəti çəkən Xocalı sakinləri bu gün qürurla yaşayırlar. Belə ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən "Böyük Qayıdış" proqramı çərçivəsində keçmiş məcburi köçkünlər yurdlarına geri dönürlər.

## Ballıcaya köç tarixləri

Ballıcaya ilk köç ötən il dekabrın 13-də baş tutub. Bu mərhələdə 27 ailə (152 nəfər) köçürülüb. 2-ci köç 27 dekabr 2024-cü il (21 ailə, 119 nəfər), 3-cü köç 15 yanvar 2025-ci il (28 ailə, 135 nəfər), 4-cü köç 31 yanvar 2025-ci il (22 ailə, 94 nəfər), 5-ci köç 24 fevral 2025-ci il (22 ailə, 95 nəfər) tarixlərində baş tutub. Beləliklə, ümumilikdə Ballıcaya köçən sakinlərin sayı 595 nəfərdir (120 ailə).

Kənd su, qaz, elektrik enerjisi ilə təchiz olunub, internet xətti çəkilib. Tibb və polis məntəqələri binaları, tam orta məktəb və uşaq bağçası sakinlərin ixtiyarına verilib. Bu, Azərbaycan hökumətinin vətəndaşlarına göstərdiyi qayğının və layihəyə ciddi dövlət dəstəyinin bariz nümunəsidir.

*Səlim*

# Aİ Ukraynanın təhlükəsizliyini üzərinə götürür

Yaxın zamanda Ukraynada yeni proseslər cərəyan edə bilər - qeyd edək ki, son zamanlar ABŞ, Rusiya və Avropa İttifaqı arasında Ukrayna münaqişəsinin nizamlanması üzrə danışıqlar daha da intensivləşib. Demək olar ki, həm Vaşinqton, həm Moskva, həm də Brüssel Ukraynada müharibənin tez bir zamanda sona çatmasında və münaqişənin dondurulmasında maraqlıdır. Artıq Rusiya ilə Ukrayna arasında imzalanması gözlənilən atəşkəs sazişi ilə bağlı yeni detallar ortalığa çıxır.

ABŞ Prezidenti Donald Tramp jurnalistlərə açıqlamasında bildirib ki, o, Ukraynada bütün tərəflərə uyğun olacaq sülhməramlı kontingentin yerləşdirilməsini zəruri hesab edir. Sözsüz ki, sülhməramlı deyəndə avropalı hərbçilərdən ibarət kontingent nəzərdə tutulur. Çünki Tramp bu fikirlərini onun Ağ Evdə Fransa Prezidenti Makronla görüşü zamanı səsləndirib. Xatırladaq ki, Tramp bundan əvvəl də Avropa ölkələrindən olan sülhməramlıların Ukraynaya göndərilməsinə etiraz etmədiyini bildirmişdi.

## Ukraynın təhlükəsizliyi Aİ-yə həvalə olunur?

Bəzi ekspertlər hesab edirlər ki, Makron Trampla bu məsələni ətraflı şəkildə müzakirə edib və ABŞ rəhbərini bu məsələyə tam razı sala bilib. Onların fikrincə, Makron Trampa bildirib ki, Aİ Ukraynanın təhlükəsizliyinə zəmanət vermək və bu yükü öz öhdəsinə götürmək iqtidarındadır.

Makron bəyan edib ki, 30-a yaxın ölkə Ukraynaya təhlükəsizlik zəmanəti verməyə hazırdır: "Ukraynada sülhməramlıların yerləşdirilməsi Təhlükəsizlik zəmanətinin bir hissəsidir. Biz avropalılar ətrafımızdakı təhdidləri nəzərə alaraq nə etməli olduğumuzu bilirik. Biz sülh istəyirik ki, bu, Ukraynanın təslim olması anlamına gəlməsin". Fransanın dövlət rəhbəri, həmçinin əlavə edib ki, Fransa Rusiya ilə dialoqu bərpa etməkdə maraqlıdır: "İndi Putinlə danışmaq üçün real əsaslar var. Fransa prezidenti olaraq mən prezident Putinlə danışıqlara hazıram".

Məsələ ilə bağlı politoloq İlyas Hüseynov "Yeni Azərbaycan" qəzetinə şərhində qeyd edib ki, Vaşinqton Ukraynanın təhlükəsizliyi ilə bağlı məsuliyyəti öz üzərinə götürmək istəmir. "İlk növbədə qeyd edim ki, Rusiya-Ukrayna müharibəsi və iki ölkə arasındakı münaqişənin nizamlanması beynəlxalq ictimaiyyətin ən önəmli gündəm mövzusuna çevrilib. Hazırda ABŞ ilə Rusiya, eləcə də ABŞ, Ukrayna və Avropa ölkələri arasında qarşılıqlı təmasların və səfərlərin mütəmadi hala çevrildiyinə şahid oluruq. Hesab edirəm ki, üçüncü ilini başa vuran bu müharibə sona çatmağa hazırlaşır. ABŞ və Qərbdəki müəyyən dairələr Ukraynada müharibənin bitməsində maraqlı olsalar da, onlar bu ölkədə əsasən öz maraqlarını güdürlər. Onu da bildirim ki, fevralın 28-də Vaşinqtonda Tramp ilə Zelenski arasında görüş təşkil olunacaq - böyük ehtimalla, bu görüşdə Tramp ABŞ-ın maraqlarını Zelenskinin diqqətinə çatdıracaq."

Politoloqun sözlərinə görə, Aİ Ukraynanın gələcək təhlükəsizliyinin təminatı məsələsində başlıca rol oynamaq istəyir: "Aİ ilkin olaraq, Ukrayna üzərindən öz təhlükəsizliyini təmin etmək marağındadır, yəni Brüsselin əsas məqsədi Ukraynada sülhməramlı adı altında avropalı hərbçilərdən ibarət kontigent yerləşdirməklə münaqişənin yenidən alovlanmasının qarşısını almaq, həm də Rusiyanın bu ölkənin mövcud ərazilərinə müdaxiləsinə imkan verməməkdir". Ardınca İ.Hüseynov əlavə edib: "Makronun Trampla görüşünün mahiyyəti əsasən bu idi. Fransa ilə yanaşı Almaniya və Britaniya da Ukraynada sülhməramlıların yerləşməsinə müsbət yanaşır".



## Sülhpərvər, amma qazanclı

Politoloq Tramp administrasiyasının diqqətinin yalnız iqtisadi hədəflərə yönəldiyini vurğulayıb: "Tramp Ukraynadakı mineral ehtiyatları istismar etmək, Rusiya ilə iqtisadi-ticari və enerji sahəsində əlaqələr qurmaq istəyir. Belə anlaşılır ki, ABŞ yeni dünya nizamında həm özünü sülh tərəfdarı kimi göstərməyə, həm də qazanclı çıxmağa çalışır".

*Yunis ABDULLAYEV*

# ABŞ və Ukrayna razılaşmaya yaxındır?

### Tərəflərin nadir torpaq metalları üzrə danışıqların son mərhələsində olduğu bildirilir

Hazırda Ukraynanın yeraltı təbii sərvətlərinin bölüşdürülməsi əsas müzakirə mövzularından biridir. Bu yaxınlarda ABŞ hakimiyyəti Ukraynaya bu ölkənin nadir torpaq metallarının bir hissəsinin ona verilməsini nəzərdə tutan saziş imzalamağı təklif etmişdi. Həmin vaxt Vaşinqton Kiyevə 500 milyard dollarlıq fond yaratmağı təklif etmişdi ki, nadir torpaq ehtiyatlarının satışından gələn gəlirlər məhz oraya yönəldiləcək. Təşəbbüsə görə, ABŞ bu fondda iqtisadi və idarəetmə hüquqlarına malik olacaq. ABŞ Prezidenti Trampın sözlərinə görə, bu yolla Ukrayna Amerikanın ona verdiyi yardımın əvəzini "ödəyəcək". Bununla bağlı sazişin Münhen Təhlükəsizlik Konfransında imzalanması gözlənilsə də, reallaşmadı.

## Zelenski qrantları borc kimi tanımaq istəmir

Xatırladaq ki, Ukrayna Prezidenti Volodimir Zelenski ABŞ-ın ukraynalılara 100 milyard dollar yardım etdiyini qeyd edib. O bildirib ki, qrantları borc kimi tanımaq fikri yoxdur. Bugünlərdə isə Ukrayna Baş nazirinin Avropa və Avro-Atlantika inteqrasiyası üzrə müavini Olqa Stefanişinanın "X" sosial şəbəkəsində yazdığına görə, Ukrayna və Birləşmiş Ştatların mütəxəssisləri nadir torpaq metalları üzrə danışıqların son mərhələsinə qədəm qoyublar. Tərəflər arasında danışıqlar çox konstruktiv olub. Onun sözlərinə görə, danışıqlar zamanı demək olar ki, bütün əsas detallar razılaşdırılıb.

Baş nazirin müavini qeyd edib: "Biz sazişin imzalanmasına hazırlığı davam etdirmək və bunu tez bir zamanda başa çatdırmaq əzmindəyik. Ümidvarıq ki, Birləşmiş Ştatlar və Ukrayna liderləri gələcək onilliklər üçün öhdəliyimizi nümayiş etdirmək məqsədilə Vaşinqtonda bu sənədi ən qısa zamanda imzalayıb təsdiq edəcəklər".

## "Trampla dialoq lazımdır"

Amma Böyük Britaniyanın "Financial Times" qəzetinin məlumat yayıb ki, Ukrayna lideri Zelenski ABŞ-ın maliyyə naziri Skott Bessent ilə görüşdə nadir torpaq metalları ilə bağlı sazişi müzakirə edərkən "çox qəzəbli" olub və tərəflər arasında mübahisə yaranıb. Qəzetin məlumatına görə, Ukrayna lideri razılaşmanı müzakirə edərkən Bessentə qışqırıb. Belə ki, Vaşinqton Kiyevə dəstək üçün xərclənən pulu geri qaytarmaq üçün Ukraynanın nadir torpaq metallarına və ölkənin ən mühüm minerallarına olan hüquqların 50 faizini tələb edir. Zelenski Bessentin ABŞ-la mədənçilik sahəsində "tərəfdaşlığın" Ukraynanın təhlükəsizliyini gücləndirəcəyinə dair iddiasını da rədd edib.

Zelenski Rusiya-Ukrayna münaqişəsinin başlanmasının üçüncü ildönümünə dair mətbuat konfransında isə demişdi ki, Birləşmiş Ştatlarla borcun on nəsil ukraynalılar tərəfindən ödəniləcəyi barədə müqavilə imzalamayacaq: "Ona görə də ABŞ lideri Donald Trampla dialoq lazımdır. Əgər bu gün ABŞ deyirsə, biz sizə yardım edəcəyik, ancaq siz bunu ABŞ üçün qazancla qaytarmalısınız - bu, razılaşmadır. Bu müqavilə qrant deyil. Bu, yeni razılaşmadır. Mən də dedim ki, belə bir dialoqa hazıram".



## Avropa İttifaqı da Ukraynadan pay istəyir

Belə bir şəraitdə Avropa İttifaqı (Aİ) da Ukraynaya nadir torpaq minerallarının istifadəsi ilə bağlı öz təklifini edib. Bu, ABŞ-ın təklifindən daha sərfəli hesab olunur. Sənaye strategiyası üzrə Avropa komissarı Stefan Sejurne bildirib ki, Avropanın ehtiyac duyduğu 30 kritik mineraldan 21-i qarşılıqlı faydalı tərəfdaşlıq çərçivəsində Ukrayna tərəfindən təmin edilə bilər. Bununla belə, onun sözlərinə görə, Avropanın təklif etdiyi əlavə dəyər ondan ibarətdir ki, Aİ heç vaxt Kiyevdən əlavə razılaşmalar tələb etməyəcək.

Görünən odur ki, Avropa İttifaqı ABŞ ilə Ukrayna uğrunda mübarizədə geri çəkilmək, yaxud Vaşinqtonun verəcəyi payla razılaşmaq niyyətində deyil. Avropanın Ukraynaya hərbçi göndərmək planını müzakirə etməsi barədə məlumatlar da buradan qaynaqlanır. Xatırladaq ki, Avropa Komissiyasının sədri Ursula fon der Lyayen Parisdə keçirilən toplantısında bildirib: "Biz Ukraynanın güc vasitəsilə sülhə layiq olduğunu təsdiqlədik. Müstəqillik, sülh, suverenlik, ərazi bütövlüyünə hörmət edən və təhlükəsizliyə etibarlı təminatları verən dünya istəyirik. Avropa Ukraynaya hərbi yardımın bir hissəsini tamamilə öz üzərinə götürür. Eyni zamanda, Avropada müdafiəmizi gücləndirməliyik".

Zelenski isə fransalı həmkarı Makronla telefon danışığında Ukrayna və Avropanın təhlükəsizliyi, həmçinin davamlı sülhə nail olmağa kömək edəcək zəmanətlərdən danışıblar. Onlar "kövrək atəşkəs" kimi istənilən həll yolunun yalnız yeni müharibənin başlanğıcı ola biləcəyi qənaətinə gəliblər. Lakin bütün danışıqlara rəğmən nə ABŞ, nə də Avropa İttifaqı Kiyevə əsaslı təhlükəsizlik zəmanəti vermir. Eyni zamanda, Ukrayna NATO-ya üzv qəbul olunmur. Görünən odur ki, hazırda ABŞ və Avropa İttifaqı əsas diqqəti Ukraynanın təbii sərvətlərinə sahib olmağa yönəldib.

*N.BAYRAMLI*

# ABŞ Avropadan “əlini” çəkərsə...

## “Köhnə qitə”nin hərbi potensialı: Silah var, kadr hazırlığı məsələsi isə...

Son iki ayda baş verən hadisələr müxtəlif reallıqlarla yanaşı, “Qərb koalisiyası”nın dağılmasına işarə edir. Belə olan halda isə ortaya bir sıra mühüm suallar çıxır - xüsusilə, Qərb dünyasının əsas təhlükəsizlik meyarı sayılan və ABŞ-ın patronajlığında olan NATO-nun “qoca qitə”yə münasibətdə hansı mövqeni tutacağı bəlli deyil. Bəzi ekspertlər iddia edirlər ki, bu vəziyyət uzun müddətdir ki, müzakirə olunan “Avropa ordusu” məsələsini yenidən aktuallaşdırır. Qeyd edək ki, mütəmadi şəkildə gündəmə gətirilən “Avropa ordusu” ideyası ilk dəfə 1950-ci ildə ortaya çıxıb. Bu, Fransanın Şimali Atlantika Müqaviləsi imzalanmasından bir il sonrakı mövqeyi idi - bu ordunun NATO-dan fərqi fransız serjantlarının rəhbərlik etdiyi qarışıq batalyonlardan (Fransız, Alman, Hollandiya, Belçika və s.) ibarət olması məsələsi gündəmdə idi ki, fransızların fikrincə, bu, daha təhlükəsiz variant idi. Lakin “layihə” beşikdəcə” boğuldu. Əsas səbəb maliyyə idi - ordunun saxlanılması üçün maliyyənin əsas hissəsi ABŞ tərəfindən tədarük edilirdi. Bu baxımdan da, “Avropa ordusu” ideyası “qeyri-praktik” adlandırıldı.

### Avropa Ordusu məsələsi yenidən gündəmə gəlir...

Bu ideyanın “sönməsindən” təxminən 70 il sonra “Avropa ordusu” fikrinin yenidən ortaya atılması məntiqi olaraq bir fikri təsdiqləyir - müttəfiqlər arasında fikir ayrılığı mövcuddur. Situasiyaya diqqət yetirdikdə isə görürük ki, fikir ayrılığının motivləri günü-gündən artır. Belə ki, Trampın Ukrayna ilə bağlı fərqli mövqe nümayiş etdirməsi, Rusiyaya münasibətdə loyallığı Avropanın “xoşuna gəlməməklə” yanaşı, onlar həm də özlərini müəyyən mənada “aldanmış” sayırlar. Axı, Baydenin onları “sürüklədiyi” yol tam fərqli bir məcra idi - xüsusilə, Qərbi Avropa bütünlüklə antiKreml mövqeyi sərgiləməklə “körpüləri yandırıb”. İndiki halda, Rusiya ilə yenidən “qonşu avropalı” kimi davranmaq bir az mümkünsüz görünür.

Paralel olaraq Tramp maliyyə məsələsində qətidir - bir sıra ekspertlərin də bildirdiyi kimi, NATO-nun “nüvə çətiri” birmənalı şəkildə ABŞ-ın ixtiyarındadır. Nəzərə alsaq ki, bu daha çox maliyyə tələb edir və NATO-nun ümumi xərclərinin də mütləq əksəriyyətini Vaşinqton ödəyir, Avropanın “müşahidəçi” olması qınanır. Başqa sözlə, ABŞ onun hərbi təhlükəsizlik çətiri altında olan Avropanın ən azından maliyyəni artırmalı olduğunu düşünür. Yeri gəlmişkən, artıq bu maliyyə vəsaitinin ölkələrin ÜDM-nin 5 faizi nisbətinə yaxınlaşdırılması qəti şəkildə qoyulub.



### Təxminən 10 il vaxt lazımdır

Beləliklə, Avropa özünün fərqli təhlükəsizlik platforması üzərində artıq düşünməlidir - bu fakt bir çox məsələlərdə özünü bariz şəkildə ortaya qoyur. Amma indiki halda bu nə qədər mümkündür? Yeri gəlmişkən, Britaniyanın “The Economist” jurnalı yazıb ki, Avropa ölkələrinə döyüşə hazır silahlı qüvvələr və ABŞ-dan asılı olmayacaq gücü hərbi-sənaye kompleksi formalaşdırmaq üçün təxminən 10 il vaxt lazımdır. Nəşr qeyd edib ki, bu gün bəzi Avropa ölkələri üçün hətta bir döyüşə hazır briqada yaratmaq çətin olardı, halbuki Rusiya-Ukrayna müharibəsində hər iki tərəfdən təxminən 230 belə bölmə iştirak edir. Avropanın “Bruegel” analitik mərkəzinin hesablamalarına görə, müharibə vəziyyətində qitədə yerləşdiriləcək ABŞ-ın 300 min hərbi qulluqçusunu əvəz etmək üçün Avropa 50 yeni briqada yaratmalı olacaq.

Bundan əlavə, Londonda yerləşən “Royal United Services Institute for Defense and Security Studies”in (RUSI) ekspertləri hesab edirlər ki, Avropa məlumat toplama, müşahidə, hədəf aşkarlama və kəşfiyyat sistemləri baxımından demək olar, tamamilə ABŞ-dan asılıdır.

Bu reallıqdır - əgər “köhnə qitə” özünün müstəqil təhlükəsizlik arxitekturasını yaratmaq istəyirsə, hazırkı hərbi xərclərini ən azı iki dəfə artırmalı olacaq. Əgər bu gün Avropanın ən böyük 15 NATO üzvü təşkilatın hərbi xərclərinin müəyyən fazini ödəyirsə, müstəqil hərbi struktur formalaşdıracağı təqdirdə bu maliyyə daha da böyüyəcək. Bu isə hazırkı dövr üçün bir qədər əlçatmaz görünür. Avropanın özünün kollektiv müdafiə refleksini yaratması üçün real şərait, silah təchizatı, hətta konsepsiyası da ola bilər. Bununla bağlı “Strateji Avtonomiya” Konsepti, eləcə də, Avropa Müdafiə Fondu kimi layihələr də “masa” üzərindədir. Amma hər bir halda bu olduqca çətindir. Səbəb isə daha fərqlidir.

### Hərbi təhsil problemi...

Avropa kontenti silah istehsalına görə dünyada ilk yerlərdən birini tutur - o baxımdan da, Fransa, Almaniya kimi böyük dövlətlərin qitənin silah təchizatında problemi ola bilməz. Problem kadr çatışmazlığıdır - nəzərə alınmalıdır ki, ötən illər ərzində Avropanın təhlükəsizliyinə cavabdeh olan qoşunlarda xidmət edən avropalı zabitlərin əksəriyyəti ABŞ-da təhsil alıb. Bu isə qitə üçün bir çox çətinliklər yaradır. Yerli kadr plotensialını artırmaq üçün Avropa ilk növbədə özünün “hərbi təhsil” kontentini formalaşdırmalıdır. Düzdür, epizodik olaraq bu təmayüllü hərbi məktəblər mövcuddur. Amma yeni standartlara cavab verən hərbi akademiyaların hazırlanması vaxt alacaq - bu isə qeyd edilən faktı bir daha təsdiqləyir. Avropanın müstəqil təhlükəsizlik çətirinin formalaşdırılması gələcək zamanın məsələsidir...

*P.İSMAYILOV*

# Düşmənlərin əbədi izdivacı

## Qustav Floberin “Salambo” romanı haqqında

əvvəli ötən sayımızda

İki gün keçmiş muzdlulara elan olunur ki, şəhəri tərk eləmək istəyənlərin məvacibi tam ödənəcək, üstəlik, Karfagen gəmiləri onları doğma sahillərinə daşıyacaq. Barbarlar razılaşırlar, səhrada yeddi gün yol yorub deyilən yerdə düşərgə salırlar. Az keçmiş Nar Havas da düşərgəyə gəlib çıxır. Mato numidiyalını öldürmək istəsə də, Nar Havas liviyalını dilə tutub ondan özünün düşərgədə qalmasına razılıq alır. Təcrübəli Spendi Nar Havasın nəsə bir qaranlıq niyyətinin, məkrli planının olduğunu duyur. Mato isə xəyallar aləmindədir, neyləsə də, Salambonun surəti yaddaşından silinmir.

Hamı vəd olunmuş qızılın-pulun Karfagendən göndəriləcəyini intizarla gözləyir. Üstəlik, baş götürüb şəhərdən qaçmış borclular, müflisləşmiş kəndlilər, tutulmamış cinayətkarlar, didərgin salınmış qaçqınlar bir ucdan düşərgəyə axışırlar. Ehtiyac, gərginlik artır, ərzaq tükənir, pullarsa gəlib çıxmır. Günün birində qoca sərkərdə Hannon başının dəstəsiylə düşərgəyə yollanıb, muzdluları Karfagendə vəziyyətin nə qədər ağır olduğuna, xəzinənin boşaldığına inandırmağa, borclarını tələb eləməsinlər deyə onları dilə tutmağa çalışır. Ac-yalavac, üzgün, qəzəbli kütlə partlayır, barbarlar yeddi günə gəldikləri yolu üç günə geri qayıdıb Karfageni mühasirəyə alırlar. Qanlı döyüş başlanır. Mato qiyamçıların başında durur.

Spendi su borularından keçməklə Karfagenə aparan gizli yolu tanıyır. Onlar ikilikdə həmin yolla şəhərə girəndə qoca qul Matonu dilə tutur ki, məbədə soxulub ilahə Tanitin örtüyünü oğurlasın, çünki bununla şəhərin qüdrət rəmzini ələ keçirib Karfagenin tilsimini sındırmış olacaq. Mato duvağı məbəddən götürüb Hamilkarın sarayına yönəlir, Salambonun otağına təpilib yuxulu gözələ sevgisini tez-tələsik bəyan eləyir, onu qoşulub qaçmağa razı salmaq istəyir. Salambo barbar oğlunun zəhmindən qorxuya düşüb haray salır, haya gələn qullar Matonun üstünə atılmaq istəyəndə qız onları dayandırır: yadellinin çiynində tanrıçanın müqəddəs örtüyü var! Bu örtük tanrının bir parçasıdır, ona toxunmaq ölümü çağırmaq deməkdir. Odur ki, heç kəs azğın liviyalı quldura yaxın düşmək istəmir.

***

Barbarlarla Karfagen arasında ağır döyüşlər gedir, heç bir tərəf düşmənini yenə bilmir, heç biri də zalımlıqda, qəddarlıqda o birindən geri qalmır. Spendi ilə Nar Havas tez-tez ruhdan düşsələr də, Mato inadından dönmür, qətiyyətlə döyüşür. Karfagen əhli düçar olduğu uğursuzluğun səbəbini ilahə Tanitin müqəddəs örtüyünə naməhrəm əli dəyməsində, şəhəri qoruyan tilsimin qırılmasında görür. Hamı bu işdə Hamilkarın qızını günahlandırır. Salambonun tərbiyəçisi olmuş qoca kahin qıza açıq deyir ki, ölkənin qurtuluşu onun əlindədir, Salambo barbarların düşərgəsinə gedib duvağı geri almalıdır. Ola bilsin, bu gediş ona canı bahasına başa gələcək, ancaq bir nəfərin həyatı bütöv bir respublikanın varlığından qiymətli deyil.

Salambo razılaşıb bələdçiylə yola çıxır. Qız elə qiyafəyə bürünür ki, qadın olduğu bilinmir, heç kəs ondan şübhələnmir. Bir fəndlə Matonun çadırına yol tapanda Tanitin zər-zibalı duvağını ilk baxışdan gözü alır. Ona elə gəlir ki, canına ilahi qüvvə dolur, cəsarətlə özünü düşmənə nişan verib, duvağı aparmaq üçün gəldiyini Matoya açıq söyləyir. Qızın gözəlliyi qarşısında igid döyüşçünün əli-ayağı boşalır, Salambo isə bir az da ürəklənib Matonu ən ağır cinayətlərdə - şəhərlərin xaraba qoyulmasında, kəndlərin yandırılmasında, respublikanı qoruyan əsgərlərin qətlə yetirilməsində suçlayır, ona nifrətini izhar eləyir. Mato isə məbəddən çıxıb onun otağına girdiyi zaman başqa niyyətinin olmadığını, sadəcə, müqəddəs örtüyü ona təhvil vermək istədiyini söyləyir: “Axı sən də Tanit kimi gözəlsən, bəlkə də Tanitin elə özüsən!” Qiyamçı liviyalı düşmən qızı qarşısında diz çöküր, onun ayaqlarından, çiyinlərindən, saçlarından öpür, Salambonun canına şirin bir yorğunluq yayılır, qız onu məst eləyən bu duyğuya təslim olmağa hazırdır.

Bu dəm düşərgədə yanğın başlayır, Mato yubanmadan çölə atılır. Salambo fürsəti fövtə verməyib müqəddəs duvaq əlində cəbhə xəttini adlayır, özünü qarşı düşərgəyə yetirib atasının çadırına salır. Könüllü casus Nar Havas da buradadır, qiyamçıların düşərgəsində yanğın törədəndən sonra atlı dəstəsiylə Karfagen ordusunun tərəfinə keçib, daha doğrusu, guya öz cəbhəsinə qayıdıb. Onun xəyanəti muzdluların səflərinə sağalmaz zərbə vurub. Hamilkarı Karfagenə işləmək məqsədiylə qarşı tərəfə keçdiyinə inandırmağa çalışsa da, əslində, bu müddətdə Nar Havas gözləmə mövqeyi tutub, yalnız Karfagen qüvvələrinin ağır basdığını görəndən sonra qiyamçılara arxadan zərbə vurmaq qərarına gəlib. İgid Matonun paxıllığını çəkməyi, Salambonu ona qısqanmağı da Nar Havasın xəyanət yolu tutmağına az təsir göstərməyib. İndi numidiyalı xidmətinin müqabilində bəxşiş, mükafat gözləyir.

İnsan sərrafı, siyasət ustası Hamilkar Barka mükənnət numidiyalının yalan danışdığını sübuta yetirməyə tələsmir, onunla ittifaqdan faydalana biləcəyini düşünür. Salambo çadıra girib Tanitin duvağını atasına uzadanda komandan vəcdə gəlib Nar Havasa belə deyir: “Mənə göstərdiyin xidmətin mükafatı kimi qızımı sənə verirəm”. Elə oradaca Hamilkar cavanları bir-birinə adaxlayır. Salambo heykəl kimi yerində donub qalır, sanki nə baş verdiyini anlamır.

davamı növbəti sayımızda



*F.Uğurlu*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"PressInform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Ziya LTD" MMC - 0124977696, 0503067744

6 aylıq abunə - 79,20 AZN
12 aylıq abunə - 158,40 AZN






# İnsan haqqında elm...

## Dünya Antropologiya Günüdür

Hansısa elmi müddəanı qəbul və ya təkzib etmək üçün həqiqi məlumatlar olmalıdır. Belə məlumatlara yiyələnmək üçün isə müxtəlif elm sahələrinə müraciət etmək olar. Lakin bəşər tarixinin öyrənilməsində əvəzsiz rola malik elmlərin içində antropologiyanı xüsusi qeyd etmək lazımdır. Məlumdur ki, antropologiya insanları, onların mədəniyyətini və təkamülünü öyrənən sahədir.

Bu gün antropologiya hər bir ölkədə mühüm əhəmiyyət kəsb edir. Çünki antropologiya təkcə qədim cəmiyyətlərin öyrənilməsi deyil, həm də mövcud ictimai formasiyalarla çox bağlıdır. Antropologiya sözü yunan mənşəli olub, hərfi mənası "insan haqqında elm" deməkdir. Termini ilk dəfə işlətmiş Aristotel bu söz altında daha çox insanın ruhi təbiətinin öyrənilməsini nəzərdə tuturdu.

Antropologiya zamanla böyüyüb, inkişaf etməli idi. Bunun üçün onun elmi "qidaya", fədakar, qorxmaz alimlərin tədqiqatlarına ehtiyacı vardı. Ekspedisiya və arxeoloji qazıntılardan, dəqiq elmlərin tətbiqi ilə aparılan ölçmələrdən gələn biliklərlə zənginləşmə labüd idi. Bir sözlə Antropologiya artıq fəlsəfi söhbətlər, disputlar səviyyəsinə sığışmırdı. Burada insanın cismani, eləcə də orqanlarının quruluşunu dəqiq bilən, yəni onları təkcə təsvir edən deyil, həm də səbəb-nəticə əlaqələrini izah etmək iqtidarında olan alimlərə ehtiyac vardı. Anatomlar bu işin öhdəsindən layiqincə gələrək müasir antropologiyanın özəyini yarada bildilər. Antropologiya insanın əmələ gəlməsində tarixi-ictimai amillərin əsas rol oynadığı üçün humanitar elmlərlə sıx əlaqədardır. İnsan morfologiyası, antropogenez və irqşünaslıq kimi əsas bölmələrdən ibarətdir. Xarici ölkələrdə etnoqrafiya və arxeologiya da antropologiyaya aid edilir.

### 2015-ci ildən bəri...

Yeri gəlmişkən, bu gün Dünya Antropologiya Günü kimi qeyd olunur. 2015-ci ildə Amerika Antropologiya Assosiasiyası tərəfindən təsis olunan bu gündə antropoloqlar və antropologiya təşkilatları tərəfindən müxtəlif tədbirlər, mühazirələr, seminarlar və sosial media kampaniyaları keçirilir. Bunların vasitəsilə bütün dünyada antropoloqlara, tələbələrə, pedaqoqlara və həvəskarlara antopologiyanın əhəmiyyəti vurğulanır. Eyni zamanda, müasir qlobal çağırışların həllində, mədəni müxtəlifliyin təşviqində və mədəniyyətlərarası anlaşmanın təşviqində antropologiyanın aktuallığı diqqətə çatdırılır.

Antropoloqlar fərqli insan həyat tərzlərini bacardıqca öyrənmək istəyirlər. Tanımaq istədikləri bu insanlar onlarla eyni cəmiyyətin üzvləri və ya fərqli bir qitə, şəhər, rayon ya da kəndlərdə yaşayırlar. Hazırda ABŞ, Almaniya, İngiltərə, İtaliya və digər ölkələrdə antropologiya üzrə elmi müəssisələr, təşkilat və kurslar fəaliyyət göstərir. Bu sahəyə dair tədris proqramları, monoqrafiyalar, elmi toplular hazırlanır.

### Antropologiyanın metodları...

Antropologiya metodu kimi antropometriyanı göstərmək olar. Antropometriya sözünün mənası "antropos"- insan, "metriya- ölçmə" deməkdir. Antropometriya - antropologiyanın tədqiqat üsuludur. Müxtəlif xalqları quruluşca müqayisə etmək və qədim insanların xarici görünüşü haqqında təsəvvür yaratmağa imkan verən obyektiv üsuldur. Antropometriya - (bədənin ölçülməsi), osteometriya (bədən sümüklərinin ölçülməsi) və kraniometriyadan (kəllənin ölçülməsi) ibarətdir.

*Yeganə BAYRAMOVA*

---

# Ağ ayıların dünyası...

## İnsan ayağı dəyməyən ərazidə yaşayırlar

Ən gözəl heyvanlar sırasında ağ ayıların xüsusi yeri var. Onlara qütb ayıları da deyirlər. Ağ ayılar digər ayılara nisbətən daha iri olur. Uzunluqları 3 metrə, çəkiləri 700 kiloqrama çatır. Onlar Şimal qütbündə, insan ayağı dəyməmiş ərazilərdə yaşayırlar.

Ağ ayılara Amerikanın şərq sahillərində, Şpinsberq və digər adalarda həm quruda, həm də buzlaqlarda rast gəlmək olar. Yeni dünya qütb ayılarının ən çox məskunlaşdığı ərazidir. Amma bu ayıları Laplandiya və İslandiyada da görmək mümkündür.

### 2000-ci ildən etibarən

Artıq 25 ildir ki, fevralın 27-si dünyada Beynəlxalq Qütb Ayısı Günü kimi qeyd olunur. Bu günün qeyd olunmasının əsas məqsədi ictimaiyyətin onlar haqqında məlumatını artırmaq və bu heyvanların qorunmasının vacibliyini vurğulamaqdır. Həmin gün ənənəvi olaraq təbiətin müdafiəsi ilə məşğul olan ekologiya təşkilatları tərəfindən müxtəlif aksiyalar və maarifləndirici tədbirlər həyata keçirilir.

Qütb ayılarının yoxolma təhlükəsinin əsas səbəblərindən biri qütb buzlaqlarının əriməsidir. Ağ ayıların məhv olmasının daha bir səbəbi ətraf mühiti çirkləndirən neft quyularının işlənməsidir.

20-ci əsrin ortalarında ov səbəbilə qütb ayısının nəslinin kəsilmək təhlükəsi var idi. Beynəlxalq səviyyədə ilk dəfə olaraq bu növə diqqət 1954 və 1956-cı illərdə IUCN-nin IV və V Baş Assambleyalarında cəlb edilib və burada onun qorunmasının zəruriliyi müzakirə edilib. 15 noyabr 1973-cü ildə Norveçin paytaxtı Osloda Kanada, Danimarka, Norveç, Sovet İttifaqı və ABŞ hökumətləri qütb ayılarının mühafizəsi haqqında saziş imzalayıblar. Müqavilə kommersiya və idman məqsədləri üçün, eləcə də



### "Ayı patrulları"

təyyarə və buzqıran gəmilərdən ayı ovuna tam qadağa qoyulmasını nəzərdə tutur.

16 oktyabr 2000-ci ildə Vaşinqtonda ABŞ və Rusiya hökumətləri Çukçi-Alyaska qütb ayıları populyasiyasının mühafizəsi haqqında saziş imzaladılar ki, bu da ağ ayıların ovlanmasını, vurulmasını, tutulmasını və ov dövriyyəsini tənzimləyir. Sənədə əsasən, yalnız yerli xalqlar ağ ayıları ovlamaq və tələyə salmaq hüququna malikdir.

Qrenlandiya və Kanadada qütb ayısının ovu üçün kvota sistemi mövcuddur. 2007-ci ildən Rusiyada Arktika kəndlilərinin və qərbdə Kolguev adasından Berinq adasına qədər yerləşən müşahidə məntəqələri şəbəkəsini özündə birləşdirən sahil meteoroloji stansiyalarının əməkdaşlarının iştirakı ilə sahil monitorinqini aparan "Ayı patrulları" fəaliyyət göstərir. Bundan əlavə, Rusiya 2030-cu ilə qədər Rusiyada qütb ayısının qorunması strategiyasını həyata keçirir.

### Buzda sürətlə qaçmaq...

Qütb ayıları geniş, düz və tüklü pəncələrə sahibdirlər.

Bundan əlavə, ayaq barmaqlarının arasındakı oyuqlar sayəsində buzun səthində vakuum yaradır. Sürüşkən olmayan pəncələri ilə buzun üzərində sürətlə qaça bilirlər. Barmaqlarının quruluşu isə suyun içində rahat üzməsini və daha uzaq məsafələri qət etməsini təmin edir.

### Qış yuxusu: 7 ay heç nə yemir

Qütb ayıları enerji sərfini azaltmaq üçün qış yuxusundan da istifadə edirlər. Xüsusilə, ana olmağa hazırlaşan qütb ayısı qış yuxusuna getdiyi dövrdə enerji sərf etməmək və balalarını daha yaxşı bəsləmək üçün maddələr mübadiləsinin sürətini azaldır. 7 ay maddələr mübadiləsindəki yağı zülala çevirərək balaların bəslənməsini təmin edir. 7 ay ərzində özü heç nə yemir. Ürək döyüntüsünü dəqiqədə 70-dən 8-ə qədər endirə bilir. Bu dövrdə yemək yemədiyi üçün təbii ehtiyacları da olmur. Beləliklə, ana ayı balaların doğulacağı dövrdə çox enerji sərf etmir.

*Yeganə*

---


### İtmişdir

Allahverdiyev Amir Fəxrəddin oğlunun adına Azərbaycan Respublikası Dövlət Sərhəd Xidməti tərəfindən verilmiş xidməti vəsiqə ( DSX № 0011835) itdiyi üçün etibarsız hesab edilir.


---



### Şahmatçımız beynəlxalq turnirin qalibi olub



Azərbaycan şahmatçısı Eltac Səfərli İndoneziyada keçirilən beynəlxalq turnirin qalibi olub.

Şahmat Federasiyasından AZƏRTAC-a bildiriblər ki, təmsilçimiz 11 turdan ibarət dairəvi sistemlə keçirilən yarışda bütün rəqiblərini qabaqlayıb.

Son turdakı qələbədən sonra Eltac xalını 8,5-ə çatdırmaqla birinci pilləni təmin edib.

### Avropa çempionatında iştirak edəcək Azərbaycan güləşçiləri bəlli olub

Albaniyanın paytaxtı Tirana şəhərində keçiriləcək U-23 Avropa çempionatında iştirak edəcək Azərbaycan güləşçiləri bəlli olub.

AZƏRTAC Dünya Güləş Birliyinin (UWW) rəsmi saytına istinadən xəbər verir ki, qitə birinciliyinin ilk günlərində



sərbəst güləşçilər xalça üzərinə çıxacaqlar.

Heyətdə Rəhman İmanov (57 kiloqram), Ceyhun Allahverdiyev (61 kiloqram), Murad Haqverdiyev (65 kiloqram), Kənan Heybətov (70 kiloqram), Ağanəzər Novruzov (74 kiloqram), Fərid Cabbarov (79 kiloqram), Arseni Cioyev (86 kiloqram), Sadiq Mustafazadə (92 kiloqram), Abdulcəlil Şabanov (97 kiloqram), Yusif Dursunov (125 kiloqram) yer alıblar.

Daha sonra mübarizəyə qadın güləşçilər qoşulacaqlar. Yığmanın heyətində Əsmər Canqurtaran (50 kiloqram), Elnurə Məmmədova (50 kiloqram), Nərgiz Səmədova (67 kiloqram), Gültəkin Şirinova (55 kiloqram), Hiunai Hurbanova (59 kiloqram), Birgül Soltanova (62 kiloqram), Ruzanna Məmmədova (65 kiloqram), Zəhra Kərimzadə (72 kiloqram) uğur qazanmağa çalışacaqlar.

Yarışın son günlərində yunan-Roma güləşçiləri qüvvəsini sınayacaqlar. Xalça üzərinə Azərbaycan təmsilçilərindən Elmir Əliyev (55 kiloqram), Hüseyn Qəribov (60 kiloqram), Ziya Babaşov (63 kiloqram), Fərid Xəlilov (67 kiloqram), Ruslan Nurullayev (72 kiloqram), Davud Məmmədov (77 kiloqram), Elmin Əliyev (82 kiloqram), Cocu Səmədov (87 kiloqram), Aqil Musayev (97 kiloqram), Ayxan Mərdanov (130 kiloqram) çıxacaqlar.

Qeyd edək ki, 429 güləşçinin iştirak edəcəyi Avropa çempionatı martın 8-dən 14-dək təşkil olunacaq.

### FIFA 2025/2026 mövsümündə futbolda 4 yeni qayda tətbiq etməyi planlaşdırır

FIFA 2025/2026 mövsümündə futbolda 4 yeni qayda tətbiq etməyi planlaşdırır.

"Report" "Sport.es"ə istinadən xəbər verir ki, martın 1-də Şotlandiyanın Qlazqo şəhərində keçiriləcək FIFA və Beynəlxalq Futbol Assosiasiyaları Şurasının (IFAB) iclasında yeni qaydaların tətbiqi müzakirə olunacaq.

İlk mümkün dəyişiklik ofsayd qaydalarına dair "Venger qanunu"dur. İdeya 2021-ci ildə tanınmış mütəxəssis Arsen Venger tərəfindən irəli sürülüb və dəyişikliklər 2024/2025 mövsümündə qüvvəyə minə bilərdi. Qaydanın mahiyyəti ondan ibarətdir ki, futbolçu yalnız bütün bədəni sonuncu müdafiəçinin arxasında olarsa, ofsayd qeydə alınsın. Bu o deməkdir ki, bir neçə millimet-




rlik fərq artıq cərimə zərbəsi təyin etmək üçün əsas olmayacaq.

İkinci təşəbbüs hakimlə azarkeşlər arasında ünsiyyətlə bağlıdır. İdeya ondan ibarətdir ki, matç zamanı hakim qəbul edilən qərarları mikrofon vasitəsilə bütün stadiona elan edəcək. Oxşar təcrübə artıq 2024-cü il Olimpiya Oyunlarında və 2023-cü il qadınlararası dünya çempionatında sınaqdan keçirilib.

Üçüncü təklif hokkey və basketbolda olduğu kimi, məşqçi çağırışının tətbiq edilməsidir. Hər komandanın məşqçisi qayda pozuntusunu müəyyən etmək və ya hakimin qərarına etiraz etmək üçün videotəkrar tələb etmək hüququna malikdir.

Nəzərə alınan son məqam saniyəölçən dayanmasının tətbiqidir. Əsas məqsəd faktiki oyun vaxtına diqqət yetirməkdir. Bu təcrübə hokkey və basketbol matçlarında da mövcuddur.

---


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
598-37-76, 498-82-21
498-81-24, 498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4677
Sifariş: 401
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova